VAQİF MƏMMƏDOV

# SƏDƏRƏK ŞƏHİDLƏRİ



VAQİF MƏMMƏDOV

# SƏDƏRƏK ŞƏHİDLƏRİ

BAKI
ŞİRVANNƏŞR
1998

*ŞİRVANNƏŞR, 13 (60), 1998.*
*NAŞİR*
*Qəşəm İSABƏYLİ.*

---

**VAQİF M.**
**SƏDƏRƏK ŞƏHİDLƏRİ. BAKI, ŞİRVANNƏŞR KİTAB NƏŞRİYYATI, 1998.**
səh. **120**

Şair-jurnalist Vaqif Məmmədovun bu kitabı qarı düşmənlərimizlə – ermənilərlə üz-üzə dayanmış qədim Naxçıvan ellərinin Sədərək torpağının Vətən uğrunda şəhid olmuş övladlarından bəhs edir.

83.3 Az(2)
M ---------------- - sifariş
054

---

*Ünvan: 370021. Bakı, Badamdar şosesi 77.*
*Tel.: 92-92-27, 92-93-72.*
*(3 və 232 saylı avtobuslarla gəlməli.)*

*"... Muxtar Respublikanın sərhəd kəndləri dəfələrlə silahlı təcavüzə məruz qalmışdır. Lakin biz hamımız yaxşı bilirik ki, əsas ağırlıq həmişə Sədərəyin üzərinə düşmüşdür.*

*Sədərək kəndində vəziyyət tamam başqadır. Burada əsil müharibə gedib, atışmalar olub. Tək sədərəklilər deyil, naxçıvanlılar da burada şəhid olublar. Biz şəhidlərin xatirəsini əbədiləşdirməli, onların ailəsinə xüsusi qayğı göstərməliyik. Bu qayğı həm hökumət tərəfindən, həm ictimai təşkilatlar tərəfindən, həm də ayrı-ayrı şəxslər tərəfindən olmalıdır..."*

***HEYDƏR ƏLİYEV***
*"Şərq qapısı" qəzeti,*
*9 dekabr 1992-ci il.*

## ÖN SÖZ

*"Ölüm haqdır, onsuz da bir gün öləcəyik, lakin şərəfli ölüm-şəhidlik hər növ ölümdən qiymətlidir..."*
*İMAM HÜSEYNİN KƏLAMLARINDAN*

Ölümlərin ən qiymətlisini – şəhidliyi seçənlərin sorağıyla altı ilə yaxın şəhər-şəhər, kənd-kənd, ev-ev gəzib soraqlaşmağımın nəticəsi bu kitabda toplanan yüzdən artıq şəhidin tərcümeyi-halını, bir də foto-şəklini tapıb hörmətli oxuculara çatdırmağım oldu.

Kitab "Sədərək şəhidləri" adlansa da Azərbaycanın 12 rayon, şəhər və qəsəbəsində, 39 kəndində, kitabdakı şəhidlərin sayı qədər ünvanda ya məktubla, ya sifarişlə, ya da elə-belə öz gedişimlə neçə-neçə şəhidlərin doğmasının, əzizinin, göz yaşı axıdanının yarasının qaysağını qopartmağım bahasına başa gəldi bu kitab...

Kitabın şəhidlərin adına layiq olub-olmayacağını hörmətli oxucuların öhdəsində saxlamaq şərti ilə Sədərək döyüşləri haqda qısaca məlumat verməzdən əvvəl bildirmək istəyirəm ki, bu kitabda müxtəlif yerlərdən gəlib Sədərəyin müdafiəsi zamanı şəhid olanlar, bir də Sədərəkdə doğulub Sədərəyin və digər Azərbaycan torpaqlarının müdafiəsində şəhid olanlar haqda materiallar toplanıb.

Naxçıvan Muxtar Respublikasının Ermənistana tərəf ən ucqar və sərhəd kəndi olan Sədərək 1990-cı il yanvarın 18-dən 1993-cü il avqustun 13-dək 14 dəfə xain ermənilərin güclü hücumuna məruz qalıb. Kəndə sutka ərzində üç yüzə yaxın top mərmisi atıldığı günlər olub...

500-ə yaxın yaşayış evi, bir çox ictimai binalar, inzibati-idarə binaları, sosial obyektlər dağıntılara məruz qalsa da yüzdən artıq şəhidin qanı bahasına qorunub Sədə-

rək... O illərdə çox dəhşətlərlə, çox faciələrlə üzləşib bu torpaq...

Hələ 20 yanvar Bakı qırğınından da iki gün əvvəl – 1990-cı il yanvarın 18-də ermənilərin Sədərək üzərinə ilk hücumu zamanı da, 19 yanvarda kənd ilk dəfə Ermənistan tərəfdən top atəşinə tutulan gün də igidlərin al qanı tökülüb Sədərək düzlərinə...

Keçmişi yada salsaq Ermənistanla Sədərək arasındakı dağ silsiləsi zaman-zaman o qədər qana boyanıb ki, bu gün də "Qırmızılar" deyirlər həmin qan rəngli dağlara...

1992-ci il mayın 18-də ermənilərin ağır zirehli texnika ilə kəndə hücumu zamanı sinələrini düşmən həmləsinə sipər edən igidlərdən 17 nəfərinin meyidinin 10 gün Miltəpə dağında qaldığı günlər də olub, Əjdəkan dağının quşqonmaz sallarındakı "Əyyub zağası"nda həftə ilə qalan döyüşçülərin axırıncı tikə çörəyi ovum-ovum ovub son nəfəslərinə qədər vuruşub səngərdən enməyəcəklərinə and içdikləri günlər də olub...

Ucubiz, Beşbarmaq, Cin təndiri, Qırmızılar dağlarında mərdanə oğulların son damla qanına qədər vuruşub son məqamda düşmən əlinə keçməmək üçün son gülləsini öz sinələrinə, öz alınlarına çaxdığı günlər də olub... Bunlar Sədərəyin bu günkü qanlı səhifələridir. Sədərək torpaqları qan ilə suvarılıb, qan rəngi hopub boz qayalara, ancaq düşmən ayağı dəyməyib bu torpağa... Düşmən qabağında mərdanə dayanıb, bir qarış da geri çəkilməyib Sədərək...

Elə buna görə də zəmanəmizin böyük siyasi xadimi möhtərəm Heydər Əliyev hələ 1992-ci ildə çıxışlarının birində Sədərəyi Naxçıvanın "Qeyrət qalası" adlandırıb, mərhum akademik Ziya Bünyadov isə 1992-ci ildə Sədərəyə göndərdiyi teleqramda "Eşq olsun Qəhrəman Sədərək camaatına..." deməklə, təsəlli verib Sədərəyin müdafiəçilərinə...

Naxçıvandan, Şərurdan, Culfadan, Şahbuzdan, Ordubaddan Sədərəyin köməyinə gələnlərlə yanaşı, Gəncə, Beyləqan, Tovuz, Xaçmaz və Xanlar rayonlarından gəlib Sədərəkdə şəhidlik zirvəsinə ucalanlarla yanaşı, Sədərə-

*yin özündə doğulan 40-dan artıq igid də əbədiyyətə qovuşub bu torpağın müdafiəsində...*

*Çox da asan deyil onların taleyindən, ömür yolundan söz açmaq... Nə söz aça bilərəm toyundan 3 ay sonra şəhid olan İlhamın, toy çörəyi yapılarkən şəhid olan ali təhsilli Aydının, nişanlısı yol gözləyən Eldarın, Türkiyədən müalicədən yarımçıq qayıdıb həmin gün də döyüşə gedib şəhid olan İlqarın, kəndə od-alov yağdığı üçün yas məclisləri qonşu kəndə və kəndin kənarındakı çadırlara salınan Lətifin, Şükürün, Mustafanın, meyidlərini şəhid olduqları səngərdən 10 gün götürmək mümkün olmayan Şakirin, Hamletin, Vüqarın, Fazilin, bir budaqda qönçə ikən solan körpəcə Malik və Elvin qardaşlarının taleyindən?.. Adları çəkilən və çəkilməyən şəhidlərin ünvanına gedib gözüyaşlıları ilə söhbət etsəm də layiqli söz tapa bilmirəm onların acı taleyi, qisməti haqda danışmağa...*

*Elə buna görə də özümdən heç nə artırmadan, heç nə əlavə etmədən, əməlləri ilə, qanları bahasına əbədiyyət zirvəsinə ucalan Sədərək şəhidlərinin təkcə tərcümeyihallarını toplayıb gələcək nəsillərə çatdırmaq, yaddaşlarda yaşatmaq məqsədi ilə çap etdirirəm bu kitabı.*

*Bir neçə il ərzində Sədərək şəhidləri haqda topladığım materialları nə qədər dəqiqləşdirsəm də yenə faktlarda müəyyən yanlışlıqlar olacağına şübhə etmirəm. Gələcək nəşrlərə kömək məqsədi ilə iradlarını və kitab haqda rəylərini ünvanıma (Sədərək kəndinə) göndərən oxuculara əvvəlcədən minnətdarlığımı bildirirəm.*

*M Ü Ə L L İ F.*

# SEYİDOV MƏHƏRRƏM MİRƏZİZ OĞLU



Məhərrəm 1952-ci ildə Şərur rayonunun Alışar kəndində anadan olub. Ukraynada hərbi xidmətini başa vurandan sonra polis orqan – larına daxil olub. Bakı şəhərində Xüsusi Orta Polis məktəbini bitirəndən sonra Şərur rayon Daxili İşlər Şöbəsində çalışaraq kapitan rütbəsi alıb.

1990-cı il yanvar ayının 19-da ermənilərin Sədərək üzərinə hücumu zamanı Ermənistanla Sədərək arasındakı postda növbədə olan Məhərrəm Seyidov ilk anlardan ən ağır döyüş mövqelərinə keçərək qəhrəmanlıqla vuruşmuş, bir neçə döyüş dostunu ölümdən xilas edərək qəhrəmancasına şəhid olmuşdur.

Dbrd bacının bir qardaşı olan Məhərrəm Seyidovun Ülviyyə, Rasim, Şərqiyyə və Habil adlı dörd övladı yadigar qalıb.

Məhərrəm Seyidova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir. İndi Şərur şəhərinin ən geniş və mərkəzi küçələrindən biri kapitan Seyidovun adını daşıyır və həmin küçənin ən görkəmli yerində Qəhrəmanın büstü ücaldılmışdır.



## NAĞIYEV ELŞAD ARİF OĞLU

Elşad 1963 –cü il avqust ayının 11-də Naxçıvan Muxtar respublikasının Culfa rayonunda anadan olmuşdur. 1980-cı ildə Culfa şəhərində orta məktəbi bitirib. Ukraynanın Donetsk şəhərindəki Ali Hərbi məktəbi zabit kimi bitirib Sovet ordusunda xidmətə başlamışdır. Bir neçə ay Ukraynada qulluq edəndən sonra Sovet qoşunlarının tərkibində Əfqanıstana göndərilən Elşad Nağıyev 1986-cı ilin mart ayında Əfqanıstandan qayıdandan sonra 271-ci taburda bölük komandirinin siyasi işllər üzrə müavini, 342-ci alayda bölük komandirinin müavini, 329-cu, 34-cü, 370-ci alaylarda komandir müavini işləmiş, 1990-1993-cü illərdə Ali Hərbi Siyasi Akademiyada təhsil almışdır. 1992-ci ildən Azərbaycan Milli Ordusunun 754 N-li hərbi hissəsində komandir kimi çalışan Elşad Nağıyevin Milli Ordumuzun formalaşmasında çox böyük xidmətləri olmuşdur. O, Ordubad rayonunun "Soyuq" adlanan sərhəd ərazilərinin erməni təcavüzündən qorunmasında böyük rol oynamış, az sonra onun rəhbərlik etdiyi hərbi hissə Ermənistanla sərhəd olan ən odlu nöqtəyə – Sədərək bölgəsinə göndərilmişdir. Bu bölgənin düşməndən müdafiəsini təşkil etməklə yanaşı eyni zamanda həm də o, Sədərəkdə texniki-döyüş və istehkam qurğularının yaradılmasında, orduda intizamın möhkəmləndirilməsində çox böyük xidmətlər göstərmişdir. Ordu quruculuğunda və torpaqlarımızın müdafiəsindəki xidmətlərinə görə vaxtından əvvəl polkovnik-leytenant rütbəsinə layiq görülən Elşad Nağıyevə bu rütbəni daşımaq qismət olmamışdır. O, 1994-cü il sentyabrın əvvəllərində Sədərək bölgəsində faciəli surətdə şəhid olmuşdur.

## ZAMANOV AYDIN ƏHMƏD OĞLU



Aydın 1968-ci il may ayının 29-da Sədərək kəndində anadan olub. 1974-1984-cü illərdə Sədərək kənd 1 N-li orta məktəbində oxuyub. Orta məktəbi bitirən il Gəncə Kənd Təsərrüfatı Akademiyasına daxil olub. 1986 – 1988 - ci illərdə Ukraynanın Çerkassk vilayətində hərbi xidmətdə olub. Hərbi xidmət dövründə hərbi hava qüvvələrində qulluq edib. Hərbi xidmətdən sonra ali təhsilini qiyabi davam etdirə-etdirə Sədərək sovxozunda zootexnik və baş zootexnik vəzifələrində işləyib.

A. Zamanov 1988-ci ildə hərbi xidmətdən qayıdan gündən doğma torpağının düşmən təhlükəsində qaldığını duyduğu üçün kənddə yaranan ilk özünümüdafiə dəstələrinin ilk döyüşçülərindən olub. Bir sıra ağır döyüşlərdə iştirak edib. 1992-ci il mayın 19-da Ucubiz dağı ermənilərdən geri qaytarılarkən həmin dağın zirvəsinə qalxan ilk 6 nəfərdən biri də Aydın olub.

O, 1992-ci il iyun ayının 23-də Mil dağı uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla şəhid olub, Sədərəkdəki şəhidlər qəbiristanlığının yaxınlığında inşa edilən xatirə-bulaq Aydın Zamanovun adını daşıyır.



# CƏFƏROV ŞAKİR SƏTTAR OĞLU

Şakir 1971 - ci ildə Sədərək kəndində anadan olub. Kənddəki 1 N-li orta məktəbi bitirəndən sonra iki illik hərbi xidmətini Rusiyada, sonra isə Qazaxıstanda başa çatdırıb. Hərbi xidmətinin ilk aylarından öz cəsarəti, qorxmazlığı ilə diqqəti cəlb edən Şakir Cəfərov bir neçə dəfə hərbi hissə komandanlığı tərəfindən fəxri fərmanlarla mükafatlandırılıb.Təkcə 1990-cı ilin son iki ayında 2484 N-li hərbi hissənin komandiri A. Aleksinin imzası ilə 3 dəfə fəxri fərman alıb.

Sədərək kəndinin ağır günləri başlananda kənddə Milli Ordunun bölmə komandiri idi. Kəndin ən dəhşətli günündə 1992-ci il mayın 18-də səhər saat 5 radələrində ermənilərin Sədərək üzərinə hücumu zamanı ən odlu nöqtəyə – Mil dağına göndərildi Şakirin bölməsi...

Tankların, PDM-lərin əhatəyə aldığı Mildə adi avtomat silahla, qumbara ilə dayanmaq mümkün olmadı ermənilərin qabağında.Geriyə də qayıtmadı Şakirin dəstəsi. Qeyrətlə vuruşdular, hamısı da qəhrəmanlıqla şəhid oldular... Meyidi 10 gün Mildə qalan, ölümə qarşı ayaqüstə mərdi-mərdanə gedən 17 igiddən biri də Şakir Cəfərov idi...

İndi Sədərək rayon Mədəniyyət evi Şakir Cəfərovun adını daşıyır.



## HÜSEYNOV RƏHİM HƏSƏN OĞLU

Rəhim 1968 – ci ildə Sədərək kəndində anadan olub. Kənddəki 2 N-li orta məktəbi bitirəndən sonra 1986-cı ilin dekabr ayından 1988-ci ilin noyabrına qədər Moskva şəhərində hərbi xidmətdə olub. O, əsgərlikdən doğma kəndinə gələndə Sədərəklə həmsərhəd olan Ermənistan kəndlərində yaşayan azərbaycanlıları döyür, söyür, təhqir edir və öz doğma torpaqlarından qovurdular. Həmin günlərdə Sədərəklə eyni təsərrüfatda birləşən, xeyiri-şəri Sədərəklə bir olan Kərki kəndinin əhalisi də erməni təzyiqlərinə məruz qalır, ermənilər tərəfindən təhqir olunurdular.

Sədərək kəndinin qeyrətli oğulları həmin günlərdə hər axşam 10-12 kilometrlik yolu qət edib Kərki cavanlarının köməyinə gedir, səhərə qədər Kərki əhalisi ilə birlikdə kəndin keşiyini çəkir, səhər də Sədərəyə qayıdırdılar.

Rəhim də hərbi xidmətdən qayıdandan 7 gün sonra hələ əsgər paltarını soyunmamış Kərkiyə köməyə gedən cavanlara qoşuldu, qəfil bir zərbədən yaralandı, bir gün sonra 1988-ci il noyabrın 23-də doğma torpaqda dəfn edildi. O, Sədərəyin ilk şəhidlərindən idi...



## ŞƏFİYEV RASİM VƏLİ OĞLU

Rasim 1954-cü ildə Şərur rayonunun Mahmudkənd kəndində anadan olub. Kənddə orta məktəbi bitirəndən sonra Sovet ordusunda hərbi xidmət keçmiş, hərbi xidmətini başa vurandan sonra polis orqanlarında işə girmişdi.

1988 - ci ilin sonlarında azğınlaşmış erməni cəlladları Ermənistanın Xalsa, Dəvəli, Şirazlı, Şiddi, Avşar kəndlərinin azərbaycanlı əhalisini vəhşicəsinə qovub öz dədə-baba yurdlarından edəndə, polis baş serjantı Rasim Şəfiyev uzun müddət idi ki, Sədərəklə Arazdöyən arasındakı polis postunda xidmətdə idi. Torpaqlarından qovulan həmvətənlərini ilkin qarşılayıb faciələrini gözləri ilə görən, erməni vəhşiliyinə tez-tez öz nifrətini açıq bildirən Rasim ermənilərin də diqqətini cəlb etmişdi.

Bir dəfə də erməni vəhşiliyini onların üzünə deyəndə qanına qəltan etdilər bu mərdanə igidi. 1988-ci il dekabrın 3-də erməni gülləsi ilə qətlə yetirilib doğma kəndində dəfn olunan Rasim Şəfiyev Sədərəyin ilk şəhidlərindən oldu.



# BABAYEV İLQAR KAMİL OĞLU

İlqar 1968-ci ildə Sədərək kəndində anadan olub. 8-ci sinfə qədər Əbrəqunus internat məktəbində, orta məktəbin son illərini isə Sədərək kənd orta məktəbində oxuyub. 1986-1988-ci illərdə Gürcüstanda hərbi xidmətdə olub.

1992-ci il may ayının 18-də ermənilərin Sədərək üzərinə hücumu zamanı Ucubiz dağının müdafiəsində gedən döyüşlərdə çox böyük qəhrəmanlıqlar göstərir, bir neçə yaralını atəş nöqtəsindən çıxarır, eyni zamanda döyüş dostlarının girov götürülməsinin qarşısını alır. Həmin döyüşdə ağır yaralanan İlqar Türkiyənin Ərzurum şəhərinə müalicəyə göndərilir. Doğulduğu Sədərək kəndinin ağır günlər yaşadığını hiss edən İlqar Ərzurum xəstəxanasında 20 gündən artıq qala bilməyib Sədərəyə qayıdır. Elə Türkiyədən gələn günün səhərisi iyunun 8-də yaralı-yaralı da silah götürüb Mili qoruyanların köməyinə gedir. Həmin gün Mil dağındakı 3-cü postdan bir neçə erməni məhv etsə də onun qəzəbi soyumur, döyüş mövqeyindən irəli çıxmaq istərkən ağır yaralanır. Şərur rayon xəstəxanasında ağır cərrahiyyə əməliyyatı aparılsa da onu həyata qaytarmaq olmur, 1992-ci il iyunun 11-də gözlərini əbədi yumub şəhidlik zirvəsinə ucalır.

## QƏDİMOV HAMLET ƏLİ OĞLU



Hamlet 1973-cü ildə Sədərək kəndində anadan olub. Kənddəki 2 N-li orta məktəbi bitirəndən sonra Azərbaycan Dövlət Bədən Tərbiyəsi institutuna qəbul olmaq arzusu ilə Bakı şəhərinə gedib. İmtahanları qurtara - qurtara Sədərək kəndində ağır günlərin başlandığını eşidən Hamlet Bakı şəhərində dözə bilməyib doğulduğu kəndə qayıdır. Elə ilk günlərdən də kəndin sərhədlərini qoruyan könüllülərə qoşulub doğma torpağın yağılardan qorunmasında iştirak edir. Həmin ərəfədə Sədərək kəndində yeni yaradılmaqda olan Milli Orduda xidmət etmək arzusuna düşür.

1992-ci il martın 23-də (Novruz bayramında...) əsgər paltarı geyinir Hamlet Qədimov... Xidmət müddəti də çox çəkmir onun... Xidmətə başladığının ikicə ayı tamam olmamış may ayının 18-də Mildəki faciə günü qəhrəmanlıqla döyüşüb həmin gün də əbədiyyətə qovuşur o... Meyidini on gün döyüş mövqeyindən çıxarmaq mümkün olmur. On gündən sonra Beynəlxalq təşkilatların vasitəçiliyi ilə meyidi alınıb Şərurun "Şəhidlər xiyabanı"nda dəfn edilmişdir.

# ŞİRALIYEV MUSTAFA HÜSEYN OĞLU



Mustafa 1966-cı ilin aprel ayının 3-də Sədərək kəndində anadan olub. Sədərək kənd 2 N-li orta məktəbində və Ordubad şəhərindəki M. Füzuli adına internat məktəbində təhsil alıb. Sədərək rayon rabitə qovşağında işləyirdi.

1988 - ci ildən Ermənistandan qovulan azərbaycanlıların Sədərək kəndində yerləşdirilməsində, kəndin könüllü müdafiəsi dəstələrinin təşkilində çox böyük fəallıq göstərmişdir.

1992-ci il mayın 18-də ermənilərin Sədərək üzərinə hücumu zamanı səhər saat 6 radələrində evdən birbaşa səngərə - düşmən qabağına gedən mərd, qeyrətli oğullardan biri də Mustafa oldu. Mil dağında gedən şiddətli döyüşlərdə o, əsil qəhrəmanlıq nümunəsi göstərsə də, bir çox yaralıları ölümün pəncəsindən xilas etsə də özünü qoruya bilmədi, Mil dağında da şəhid oldu. Evli idi, Müşərrəf və Məmmədvəli adlı iki övladı qalıb.

# KAZIMOV İLHAM CƏBRAYIL OĞLU



İlham 1969 - cu ildə Sədərək kəndində anadan olub. Orta məktəbi kənddə bitirib. Hərbi xidmətini uzaq Saxalində başa vurub. 1990-cı ilin yanvarında ermənilərin Sədərək üzərinə hücumu zamanı könüllü müdafiə dəstələrinin tərkibində düşmənə qarşı vuruşub. Mərdliyini, dönməzliyini görüb onu serjant rütbəsi ilə polis dəstəsinə qəbul ediblər.

1992-ci il mayın 18-də ermənilərin Sədərək üzərinə hücumu zamanı İlham Ucubiz dağındakı səngərdə növbə komandiri idi...

Səhərin alatoranında hər tərəfdən ağır zirehli texnika ilə mühasirəyə alındıqlarını gördülər. Ayrı yol yox idi... Ölümünü gözü qarşısına alan İlham və onun döyüş dostları son damla qanları qalana qədər vuruşdular...Ağır itki verdilər yağı düşmənə. Bir addım da geri çəkilmədilər. Elə Ucubiz dağının sal qayaları arxasında da əbədiyyətə qovuşub şəhidlik zirvəsinə ucaldılar. İlham şəhid olub həyata əlvida deyəndə 7 ay idi ki, ailə qurmuşdu.

# MƏMMƏDOV İDRİS ƏLƏSGƏR OĞLU



İdris 1959-cu il sentyabr ayının 23 - də Naxçıvan şəhərində anadan olub. Orta məktəbi bitirəndən sonra çilingərlik peşəsinə yiyələnib və bir müddət bu peşədə çalışıb.

Sədərək kəndinin üstünü Ermənistan tərəfdən qara buludlar alanda köməyə gələn ən qeyrətli oğulların öncüllərindən biri də İdris Məmmədov olub. Qırmızılar dağı uğrunda gedən döyüşlərdə əsil fədakarlıq göstərib.

Ən ağır döyüşlərin birinci günü 1990-cı il yanvar ayının 19-da şəhidlik zirvəsinə ucalıb. Naxçıvan şəhərindəki "Şəhidlər xiyabanı"nda dəfn olunub. Günay və Elnur adlı bir cüt də balası qalıb İdrisin...

Naxçıvan şəhərindəki küçələrdən biri İdris Məmmədovun adını daşıyır.

---

2. ŞİRVANNƏŞR, 13(60), 1998.

# SEYİDOV İLKİN MİRNAZİR OĞLU



İlkin 1969-cu il sentyabrın 23-də Şərurun İbadulla kəndində anadan olub. Naxçıvan şəhərində 5 N-li orta məktəbi bitirib. Hərbi xidmətini uzaq Şərqdə – Xasan gölü ətrafında başa vurub.

Hərbi xidmətdən qayıdandan sonra Naxçıvan MR Daxili İşlər Nazirliyinə müraciət edərək polis orqanlarında işləmək arzusunda olduğunu bildirib. Onu starşina rütbəsi ilə Naxçıvan MR Daxili İşlər Nazirliyinin Xüsusi Təyinatlı Polis Dəstəsinə qəbul ediblər. Naxçıvanın müxtəlif döyüş bölgələrində onun şücaətini görüb bölmə komandiri təyin ediblər. Əvvəllər bir neçə dəfə Sədərək döyüşlərində olsa da 1992-ci ilin may ayının 17-də son dəfə gedib Sədərək bölgəsinə...

Mayın 18-də gedən şiddətli döyüşlərdə böyük fədakarlıq göstərib. Mayın 19-da Ucubiz dağının düşməndən təmizlənməsində qəhrəmanlıqla şəhid olub. Qəbri Naxçıvan şəhərindəki "Şəhidlər xiyabanı"ndadır.

# ƏHMƏDOV ELDAR PAŞA OĞLU



Eldar 1966-cı il aprelin 14-də Sədərək kəndində anadan olub. 1983-cü ildə orta məktəbi bitirib. 1984-1986-cı illərdə Rusiyanın Çita şəhərində hərbi xidmətdə olub. Hərbi xidmətdən qayıdandan sonra Sədərək nümunəvi yeməkxanasında müdir işləyirdi. 1990-cı il yanvarın 19-da ermənilərin atdığı mərmi Eldarın işlədiyi yeməkxanaya düşəndə qərərgah həmin günbəz yeməkxananın zirzəmisində yerləşirdi. Bir neçə adamın həlak olmasını gözləri ilə görən Eldar həmin gündən silah götürüb könüllülərə qoşuldu və düşmənlə döyüşlərə girdi.

1992-ci il mayın 18-də Mil dağında gedən dəhşətli döyüşdə şəhid olanlardan biri də Eldar oldu. Taleyinin bir müəmmalı səhifəsi də o oldu ki, Eldarı başqasına oxşadıb səhvən Şərurun Keşdaz kənd qəbiristanlığında dəfn etdilər. Bir neçə gündən sonra məsələ aydınlaşdı, onun qəbri açıldı və təzədən aparıb Sədərək kəndinin şəhidlər qəbiristanlığında dəfn etdilər.

Eldar şəhid olanda nişanlı idi.

# VƏLİYEV ŞÜKÜR MƏHƏRRƏM OĞLU



Sədərək kəndi 1990-cı ildə ermәni təcavüzünə məruz qalanda kəndin müdafiəsini təşkil etmək məqsədilə əksəriyyəti sədərəklilərdən ibarət yeni yaradılmış polis dəstəsinə ilkin daxil olanlardan biri də Şükür Vəliyev oldu. Elə düşmən qabağına ilkin çıxıb döyüşlərə gedənlərdən biri də Şükür oldu.

1992-ci il may ayının 18-də ermənilərin Sədərək üzərinə güclü hücumu zamanı Cin təndiri və Əjdəkan postlarında gedən döyüşlərdə fəal iştirak edən Şükür Vəliyev həmin gün Ucubiz postunun ermənilər tərəfindən tutulduğunu eşidəndə bir qədər sarsılsa da bir gün sonra mayın 19-da Ucubiz dağının ermənilərdən geri qaytarılmasının ən fəal iştirakçılarından biri oldu. Həmin gün Ucubiz dağının zirvəsində şəhid olub əbədiyyətə qovuşsa da qoymadı evlərinin lap yaxınlığında yerləşən bu əzəmətli dağ düşmən oylağına çevrilə...

Şükür Vəliyev evli idi, əbədiyyətə qovuşandan bir neçə gün əvvəl ata olmuşdu...

## SEYİDOV MİRHƏŞİM MİRŞƏMİL OĞLU



Mirhəşim 1958-ci il may ayının 20-də Şərur rayonunun Oğlanqala kəndində anadan olmuşdu. 1965-1975-ci illərdə Qafur Məmmədov adına Oğlanqala kənd orta məktəbində oxuyub.

1990-cı il yanvarın 19-da Sədərək üzərinə erməni təcavüzü başlananda Naxçıvanın bütün kəndlərindən köməyə gələn dəstələr içərisində Oğlanqala kəndindən gələn igidlər də öz qəhrəmanlıqları ilə fərqlənirdilər. Oğlanqaladan gələn igidlər içərisində 1977-1979-cu illərdə Sovet Ordusu sıralarında qulluq edib döyüş texnikasını mükəmməl öyrənmiş Mirhəşim Seyidov daha çox gözə çarpır, düşmənə daha ağır zərbələr endirirdi.

Döyüşə öndə gedən Mirhəşim Seyidov şəhidlik zirvəsinə ucalanların da öncüllərindən oldu. 1990-cı il yanvarın 19-da...

1983-cü ildən ailəli idi. Mirhəsən, Rumiyyə, İlahə, Bəsti adlı dörd də övladı qaldı Mirhəşimin...

Şərur rayonundakı Oğlanqala kənd orta məktəbinə Mirhəşim Seyidovun adı verilmişdir.

# MƏMMƏDOV VALİD QASIM OĞLU



Valid 1954-cü ildə oktyabrın 4-də Ermənistanın Vedi rayonunun Avşar kəndində anadan olub. Ailələri Şərurun Dəmirçi kəndinə köçdüyü üçün 1961-1971-ci illərdə Dəmirçi kənd orta məktəbində oxuyub.

1973-75-ci illərdə Sovet Ordusunda xidmət edib. Hərbi xidmətdən sonra bir il N. Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun hazırlıq şöbəsində oxuyub. Sonra həmin institutu bitirib. Sənədlərdə Valid yazılsa da hamının Şahvələd kimi tanıdığı V. Məmmədov Tibb İnstitutunu bitirəndən sonra ailə qurur və on ilə yaxın Culfa rayon Sanitar-Epidemioloji stansiyasında çalışır.

1992-ci il mayın 6-da xain ermənilər Sədərək üzərinə hücum edəndə Valid Sədərək rayon Sanitar-Epidemioloji stansiyasının həkimi kimi yaralılara köməyə getmişdi. Elə həmin döyüşdə Qırmızılar dağındakı yaralıya yardıma gedən Valid həkim ağ xalatda olsa da ermənilər tərəfindən vəhşicəsinə qana boyandı. Vətənin ağır günündə həkimlik borcunu yerinə yetirərkən qəhrəmancasına şəhid oldu. 4 övladı qalıb Validin – Qasım, Araz, Süleyman.

## HÜSEYNOV ETİBAR İSLAM OĞLU



Etibar 1966-cı ildə Sədərək kəndində anadan olub. Kənddə orta təhsil alıb. Bir müddət kənddə üzümçülük sovxozunda fəhlə işləyəndən sonra Sovet Ordusuna hərbi xidmətə çağrılıb. Uzaq Amur vilayətində və Xabarovsk şəhərində hərbi xidmətdə olub.

Sədərək erməni təhlükəsi qarşısında qalanda könüllü özünümüdafiə dəstələrinə qoşulub, aylarla gecə-gündüz doğulduğu torpağın keşiyini çəkənlərdən olub.

1990-cı ildə Daxili İşlər Şöbəsinə məxsus "QAZ-69" maşınının sürücüsü kimi kəndin ağır günlərində həftələrlə yuxusuz gecələr keçirib, gərgin əməliyyatların iştirakçısı olub.

1992-ci il iyunun 7-dən 8-nə keçən gecə belə əməliyyatların birindən qayıdarkən idarə etdiyi maşının qəzaya uğraması nəticəsində faciəli surətdə həlak olub. Evli idi, iki uşağı qalıb.

## ƏLİYEV ƏNVƏR BİLAL OĞLU



Ənvər 1964-cü ildə Sədərək kəndində anadan olub. Sədərək kənd Şərab Emalı zavodunda fəhlə işləyirdi. Kəndin pəhləvan cüssəli, say-seçmə igidlərindən idi.

Hələ 1988-1989-cu illərdə Ermənistanda yaşayan azərbaycanlıların vəhşicəsinə öz yaşadıqları torpaqlardan qovulduğu günlərdə Sədərəkdə yaranan könüllü özünümüdafiə dəstələrinin ən fəal üzvlərindən biri də Ənvər Əliyev idi. O, həmin vaxtlardan həftələrlə, aylarla gecələr Qırmızılar, Ucubiz səngərinə gedir öz qeyrətini düşmən qabağında göstərirdi.

1990-cı ilin 18-20 yanvarında da, 1992-ci ilin 18 mayında da, sonrakı döyüşlərdə də qeyrətlə əsil qəhrəman kimi vuruşdu Ənvər Əliyev. 19 mayda Ucubiz ermənilərdən alınan gün ölümündən qorxmayıb dağın zirvəsinə ilkin qalxıb düşməndən hayıf alan, ordan kəndə tərəf köynəyini yelləyib "Ucubiz bizimdir" deyən 6 nəfərdən biri də Ənvər oldu.

Ölüm də yaman hayıf aldı bu mərd oğuldan, 1992-ci il avqustun 22-də zülmət bir gecədə çox mühüm bir hərbi tapşırığı yerinə yetirib, Qırmızılar dağı ilə sürünə-sürünə geri qayıdarkən qəfil bir gülləyə tuş gəldi Ənvər... Orda da əbədiyyətə qovuşub 4 övladının, bir də əzizlərinin yollarda qoydu gözlərini...

## ABBASOV BAHADUR BAYRAM OĞLU



Bahadur 1960-cı ildə Naxçıvan şəhərində anadan olub. 1977-ci ildə Naxçıvan şəhərindəki C. Məmmədquluzadə adına 2 N-li orta məktəbi bitirmiş, 1985-1988-ci illərdə Naxçıvan Politexnik Texnikumunda oxumuşdur. 1990-cı il yanvarın 18-də ermənilərin Sədərək üzərinə hücumu başlanan ilk günlərdən Naxçıvandan Sədərəyin köməyinə gələn könüllülər dəstəsindəki ən qeyrətli oğullardan biri də Bahadur olub. O, bir neçə dəfə Sədərəyə gəlib düşmən hücumlarının dəf edilməsində iştirak etsə də onun Sədərəyə son gedişi 1992-ci ilin may ayının 23-də olub. Həmin gün axşama qədər ağır döyüşlərdə iştirak edən Bahadur mayın 24-də Mil dağında neçə gün əvvəldən qalan şəhidlərin meyidinin çıxarılması əməliyyatından qayıda bilmir, düşmən tərəfindən atılan bir snayper gülləsi ilə əbədiyyətə qovuşur.

Naxçıvanın "Şəhidlər xiyabanı"nda dəfn olunan Bahadurun iki övladı qalıb.



## MUXTAROV VÜQAR BAYRAM OĞLU

Vüqar 1972-ci il iyun ayının 28-də Sədərək kəndində anadan olub. 1980-1990-cı illərdə kənddəki orta məktəbdə oxuyub. 1991-ci il iyun ayının 25-də hərbi xidmətə gedib. Həmin ilin noyabr ayının sonlarına qədər Kalininqrad vilayətinin Qur-yevsk rayonunda 49334 N-li hərbi hissədə qulluq edib.

Ermənilərin Sədərək kəndinə hücumunu eşidəndə və Sovet ordusunun dağıldığı ərəfədə bir başa Kalininqraddan Sədərək kəndinə gəlib. 1991-ci ilin dekabr ayından Sədərəkdəki Milli Orduya daxil olub.

Ailə üzvlərinin dediklərinə görə Sədərək dağlarında xidmətdə olduğu müddətdə evə çox az-az gəlirdi ki, mən buralıyam, başqa rayonlardan, kəndlərdən olan yoldaşlarım darıxmasın deyə gec-gec gəlirəm...

Son dəfə 1992-ci il mayın 3-də evlərinə gəlib, döyüşçü dostlarına aparmaq üçün isti təndir çörəyi götürüb, evdəki uşaqların hamısının üzündən öpüb ayrılıb. 18 mayda (1992) Mildə şəhid olanların biri də Vüqar Muxtarov idi. Şəhid olmasının qırxı 20 yaşı tamam olan günə – iyunun 28-nə düşüb...

# AĞAYEV NƏSİB AĞAMALI OĞLU



Nəsib Şərur rayonunun Qarabağlar kəndində anadan olmuşdur. Azərbaycan Politexnik texnikumunu və Hərbi Akademiyanı bitirmişdi. Mayor rütbəsində idi. 1981-ci ildən zabit kimi hərbi xidmətdə idi. Əvvəllər Sovet hərbi hissələrinin tərkibində müxtəlif regionlarda xidmətdə olmuşdur. Doğma Azərbaycan, doğulduğu Naxçıvan torpağı azğın ermənilərin hücumuna məruz qalanda Nəsib Ağayev Moldova Respublikasındakı hərbi hissələrin birində briqada komandirinin müavini vəzifəsində olsa da Vətənin ağır günündə doğma torpağın müdafiəsinə gəlmiş, Azərbaycanda MDB qoşunlarından 75-ci diviziyanın qəbulunda iştirak etmiş, həmin diviziyanın bazası əsasında yaradılmış Azərbaycan Milli Ordusu 5-ci briqadası komandirinin döyüş hazırlığı üzrə müavini vəzifəsinə təyin olunmuş və Sədərək bölgəsinə göndərilmişdi. Bacarıqlı zabit kimi qulluq etdiyi hərbi hissədə qısa vaxtda xeyli şücaətlər göstərən N. Ağayev 1992-ci il noyabrın 29-da hərbi xidmət zamanı faciəli surətdə həlak olmuşdur.

# AĞAYEV MUSA AĞAMALI OĞLU



Musa 1971-ci il yanvar ayının 30-da Şərur rayonunun Qarabağlar kəndində anadan olub. 1978-1988-ci illərdə doğulduğu kənddə orta təhsil alıb, 1989-cu ildə Naxçıvan şəhərində sürücülük peşəsinə yiyələnib.

1989-cu il may ayının 11-də hərbi xidmətə gedib. Əvvəllər bir müddət atıcı batalyonunda xidmət edib. 1992-ci ilin ortalarında Sədərək döyüşlərinin ən ağır vaxtlarında həmin döyüşlərin iştirakçısı olub, bir neçə hərbi əməliyyatların yerinə yetirilməsində fəallıq göstərib. 1992-ci il noyabrın 28-dən 29-na keçən gecə çox mühüm hərbi əməliyyatı yerinə yetirərkən qardaşı mayor Nəsib Ağayevlə birlikdə faciəli surətdə həlak olmuşdur.

# MEHDİYEV LƏTİF NƏSİB OĞLU



Lətif 1962-ci il yanvar ayının 12 - də Sədərək kəndində anadan olub. Kənddəki orta məktəbi bitirəndən sonra, 1981 – 1983 - cü illərdə İjevsk şəhərində hərbi xidmətdə olub. Hərbi xidmətdən sonra texniki peşə məktəbində elektrik peşəsinə yiyələnib. Bir müddət Sədərək MSD-də fəhlə, sonralar isə usta işləyib.

Sədərək erməni təhlükəsi qarşısında qalanda könüllü olaraq özünümüdafiə dəstələrinə qoşulub, bir neçə döyüşlərdə iştirak edib. 1992-ci il iyun ayının 20-də Mil dağı uğrunda gedən döyüşlərdə şəhid olub. Evli idi... Şəlalə, Hikmət, Habil adında üç övladı qalıb.

# ƏLİYEV KAMRAN YAQUB OĞLU



Kamran 1971-ci ildə Culfa rayonunun Əbrəqunus kəndində anadan olub. Orta məktəbi doğulduğu kənddə bitirəndən sonra Dnepropetrovsk şəhərindəki Radio Aparatlarının Quraşdırılması texnikumunu bitirib. Hələ Dnepropetrovsk şəhərində oxuduğu müddətdə Qarabağ hadisələrini ardıcıl izləyib nifrət və qəzəbini gizlədə bilməyən Kamran Qarabağa getmək üçün Naxçıvana qayıdır, yenicə yaradılmış Müdafiə Komitəsinə müraciət etsə də bir müddət orduya götürmürlər onu. Naxçıvan MR DİN-nin qəbulunda olandan sonra Milli Orduya "idman rotası"na qəbul edirlər onu (IX-1991). Qısa vaxtda öz cəldliyi, cəsurluğu və çevikliyi ilə fərqlənən Kamran yoldaşları arasında "Tampo" ləqəbi ilə məşhurlaşır. Bir çox yarışların qalibi olur. Sədərəyin müdafiəsinə göndərilən "Sərhəd rotası"na daxil edilməsə də xəlvət minir Sədərəyə göndərilən avtobusa. Onu avtobusdan endirmək istəsələr də gözləri yaşarır, təkidlə deyir ki, Sədərəkdə vuruşmaq istəyirəm mən...

Sonralar atası Yaqub müəllim bunun səbəbini soruşanda Kamran belə cavab verir: "- Xocalı hadisəsindən sonra Sədərəkdəki vəziyyəti bilə-bilə Naxçıvanda qalmağı kişilikdən saymıram..."

1992-ci ilin aprelində nişan qoymuşdular Kamrana. Bir neçə gün sonra mayın 18-də Sədərəkdə "Mil" uğrunda gedən döyüşlərdə qəhrəman kimi vuruşub əbədiyyətə qovuşdu Kamran...

# SƏFƏRZADƏ VÜQAR NƏSİB OĞLU



Vüqar 1972-ci ildə Sədərək kəndində anadan olub. Sədərək kənd orta məktəbini bitirəndən sonra Leninqrad şəhərinə gedib. Həmin şəhərdə texniki-peşə məktəbini bitirəndən sonra hərbi xidmətə gedib. Türkmənistanda hərbi xidmətini başa vuran kimi doğulduğu Sədərək kəndinin yağı düşmən tərəfindən təhlükəyə məruz qaldığını eşidib Sədərəyə gəlir, elə əsgər paltarını soyunmamış da kəndin könüllülərinə qoşulub Mil dağı istiqamətində döyüşlərə gedir.

1992-ci il mayın 18-dən etibarən ermənilərin Sədərək üzərinə başlanan daha güclü həmlələrinin qarşısının alınmasında, ölüm-dirim döyüşlərində iştirak etsə də adi günlərin birində, iyun ayının 27-də Mil dağındakı 3-cü postda çörək yediyi yerdə düşmən snayperinə tuş gəldi Vüqar... Naxçıvan Respublika xəstəxanasında həkimlər çox çalışsalar da həyata qaytara bilmədilər onu... 1992-ci il iyulun 7-də gözlərini əbədi yumub şəhidlik zirvəsinə ucaldı.

## ZAMANOV FAZİL İMRAN OĞLU



**19** yaşlı şəhidin ömür yolu kimi tərcümeyi-halı da çox qısadır... Atası İmranla dünyanın get-gəlindən xeyli söhbət edəndən sonra söhbəti Sədərəyin qanlı - qadalı günlərinə, torpaq uğrunda canından keçənlərin, nəhayət oğlu Fazilin taleyinin üstünə gətirəndə cavan yaşlarından saçları ağarmaqda olan şəhid atası dərindən köksünü ötürüb qırıq-qırıq iki-üç cümlə deyə bildi Fazil haqqında.

1973-cü il martın 15-də anadan olub. 1990-cı ildə Sədərək 2 N-li orta məktəbini bitirib. 1992-ci ilin mart ayında hərbi xidmətə gedib. Sədərəkdə qulluq edib...

Atanın dili gəlmədi 19 yaşlı oğlunun ölümünü deməyə... Deyə bilmədi ki, o, 1992-ci il mayın 18-də Mildə şəhid olub... Meyidini də ölümünün 10-cu günü səngərdən götürmək ancaq mümkün olub... 10 gündən sonra doğma torpağa tapşırılıb, əbədiyyətə qovuşub Fazil Zamanov...

# MAHMUDOV VİLAYƏT TƏVƏKKÜL OĞLU



Vilayət 1964-cü ildə yanvarın 17-də Babək rayonunun Qaraxanbəyli kəndində anadan olub. Kənddə orta məktəbi bitirəndən sonra 1983-1985-ci illərdə Sovet ordusunda xidmət edib.1987-1988-ci illərdə Bakı Dənizçilik texnikumunun rabitə xidməti şöbəsində oxuyub. Bir qədər Bakıda işləyəndən sonra Naxçıvana gəlib, şəhərlərarası avtomat telefon stansiyasında işləyib.

Vətənin üstünü qara buludlar alanda 1991-ci ilin əvvəllərində könüllü olaraq Milli Orduya yazılıb, rabitə batalyonunda xidmət etməyə başlayıb. Sədərəyin müdafiəsi zamanı bir sıra ağır döyüşlərin iştirakçısı olub. Sədərək sərhədlərində və döyüş mövqelərində rabitə xidmətinin təşkilində xüsusi xidmətləri olub. Batalyonda rabitə xidməti üzrə rəis vəzifəsinə irəli çəkilib. Qaranlıq bir gecədə 1992-ci il iyulun 28-də döyüş mövqeyində dağıdılmış rabitə xətdlərini bərpa edərkən qəhrəmanlıqla şəhid olmuşdur. Ölümündən bir neçə gün əvvəl kapitan rütbəsi alsa da, bu rütbəni daşımaq qismət olmayan Vilayət Mahmudov Naxçıvan şəhərindəki "Şəhidlər xiyabanı"nda dəfn olunmuş, onun adı Babək rayonundakı Cavidabad kənd məktəbinə verilməklə əbədiləşdirilmişdir.

---

*3. ŞİRVANNƏŞR, 13(60), 1998.*



# MƏMMƏDOV MƏMMƏD ƏLİ OĞLU

Başı çox bəlalar çəkən Sədərək kəndindən Naxçıvana gedən şose yolunun sol tərəfində bir kənd var – "Şəhid Məmməd kəndi"...

Bir neçə il əvvəl bu yoldan keçən Məmmədin ağlına da gəlməzdi ki, həyata göz açdığı Danzik kəndindən başlanan ömür yolu 1990-cı il yanvar ayının 19-da Sədərək kəndində xain ermənilərin əli ilə sona çatacaq, torpaq uğrunda, kənd-kəsək uğrunda canını qurban verdiyi üçün Sədərəkdən bir az aralıda Arpaçayın sahilində yerləşən kəndlərdən biri də onun adı ilə "Şəhidməmməd" adlanacaqdır... Bu da bir tale, bu da bir alın yazısı imiş...

Bəli, Zəminə, Zamin, Sevinc, Elnarə, Emin, Elnurə adlı altı övladı qalan bir atanın – Məmməd Əli oğlu Məmmədovun ömrü də əbədiyyətə belə qovuşdu...

# ƏLİYEV SƏYYAD ƏHƏD OĞLU



Səyyad 1952-ci ildə Naxçıvan şəhərində anadan olub. Sədərək kəndinə od yağdığı günlərdə kənd "olum"la "ölüm" arasında qalanda Naxçıvanın bütün rayon və kəndlərindən köməyə gələn ən qeyrətli oğullardan biri də Səyyad Əliyev idi.

O, 1990-cı il yanvarın 18-dən Sədərək üzərinə ermənilərin ilk hücumu başlandığı gündən könüllü dəstələrin tərkibində bir neçə dəfə Sədərəyə gəlib, Qarağac, Cin təndiri, Ucubiz, Qırmızılar, Qaraburun uğrunda gedən döyüşlərin hamısında iştirak edib, qaniçən düşmənə ağır zərbələr endirməklə alnıaçıq, üzüağ qayıtmışdı öz evlərinə. Ancaq 1992-ci il mayın 25-də Mildə gedən döyüşdən sağ qayıda bilmədi Səyyad...

Əlində qumbara düşmən səngərinə tərəf sürünüb bir neçə erməni quldurunu məhv etdi, özü də şəhidlik zirvəsinə ucaldı həmin gün...

S. Əliyev Naxçıvan şəhərindəki "Şəhidlər xiyabanı"nda dəfn olunmuşdur.



# ƏHMƏDOV ETİBAR RZAQULU OĞLU

Etibar 1962-ci il avqust ayının 20-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Dəmirçi kəndində anadan olub. Orta təhsil alandan sonra sürücülük peşəsinə yiyələnib. Elə sürücü peşəsində də çalışıb ailəsinin halal ruzisini qazanırdı ki, yağı düşmən həmlə etdi doğma torpağa...

Sədərək kəndinə ən dəhşətli hücum günlərinin birində, 1990-cı il yanvar ayının 19-da ilkin köməyə çatanlardan biri də Etibar Əhmədov oldu.Həmin gün şəhidlik zirvəsinə ucalanlardan da biri o oldu...

Həyata göz açandan bir çox çətinliklərlə qarşılaşan, alnının təri, əlinin qabarı ilə bir bölük ailənin qayğılarını çəkən Etibarın çox arzuları var idi hələ... Şəhid olanda 3 övladı, 9 da bacı-qardaşı qaldı onun...

Şərur rayonundakı Dəmirçi kənd orta məktəbinə Etibar Əhmədovun adı verilmişdir.

# İSMAYILOV ELMAN CABBAR OĞLU



Elman 1965-ci ildə Sədərək kəndində anadan olub. 1971-1981-ci illərdə kənddəki orta məktəbdə oxuyub. 1983-1984-cü illərdə hərbi xidmətdə olub. Hərbi xidmətdən sonra bir qədər Sədərək sovxozunda fəhlə işləyib. 1991-ci ildə yeni yaranan Sədərək rayon Daxili İşlər şöbəsində polis serjantı kimi fəaliyyətə başlayıb. Doğulduğu torpağın düşmən həmləsinə məruz qaldığını bilə-bilə polis sıralarına daxil olan E. İsmayılov əyninə polis paltarı geydiyi gündən kəndin qeyrətli oğulları ilə birlikdə düşmən qabağına çıxdı... Elə ilk döyüşlərin birində də – 1992-ci il may ayının 3-də Qaraburun dağı ətrafında gedən döyüşdə qəhrəmanlıqla şəhid oldu. Sədərəkdə ağır döyüşlər getdiyi üçün kənddə Elmanı dəfn etməyə imkan olmadığından onu Şərurun "Şəhidlər xiyabanı"nda dəfn etmək haqqında qərar qəbul olunsa da, valideynləri, kənd ağsaqqalları buna razı olmadı, onu axşam qaranlıq düşəndən sonra doğulduğu Sədərək kəndinin qəbiristanlığında dəfn etdilər.

E. İsmayılovun ömür yolunu qəbrinin baş daşında yazılan bu misralar da əks etdirir.

Ömrün yaz günündə, köçdüm əlvida...
Lalələr göyərər yazda qanımdan.
Nə zaman siz məni salsanız yada,
Bilin Vətən üçün keçdim canımdan.

# NƏZƏRƏLİYEV ABBASƏLİ QARAGÖZ OĞLU



Abbasəli 1962-ci il noyabr ayının 25-də Naxçıvan Muxtar Respublikası Babək rayonunun Əliabad kəndində anadan olub. Orta təhsil alandan sonra dülgərlik sənətini öyrənib, tikinti idarəsində dülgər işləyirdi.

1990-cı il yanvar ayının 19-da azğın ermənilər Sədərək üzərinə hücum edəndə bu xəbəri eşidən kimi, el qeyrəti çəkən tay-tuşlarına qoşulub, ilk dəfə köməyə gələnlərdən biri də Abbasəli Nəzərəliyev olub. "Qanlı Yanvar" günü Bakıda xalqımızın qeyrətli oğulları öz qızıl qanına boyananda Sədərəkdə də xain bir erməni gülləsi Abbasəli Nəzərəliyevin sinəsinə tuş oldu. "Qanlı Yanvar" günü şəhid olan Abbasəli Nəzərəliyev Naxçıvan şəhərindəki "Şəhidlər xiyabanı"nda dəfn olunub.

Evli idi. Şövkət adında bir qızı qalıb. İndi Əliabad kənd orta məktəbi şəhid Abbasəli Nəzərəliyevin adını daşıyır.

# ƏSGƏROV SƏDİ SABİR OĞLU



Sədi 1970-ci ildə Şərur rayonunun Axamət kəndində anadan olub. Orta məktəbi doğma kənddə bitirib, Minsk şəhərində Ali Mülki Aviasiya məktəbində oxuyurdu. 1992-ci ildə xain ermənilərin Naxçıvan üzərinə hücumunu eşidib təhsilini yarımçıq qoydu, doğma torpağın müdafiəsinə qayıtdı. Qəhrəman oğul 13 uşaq böyütməkdə olan Qəhrəman anası İlə, doğma atası, bacı və qardaşları ilə görüşüb doyunca hal-əhval tutmamış od-alov içində olan Sədərəyin müdafiəsinə getdi. 1992-ci il may ayının 2-də Ermənistanla sərhəddə yerləşən Mil dağı uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşdu. Elə həmin gün Sədərəkli döyüş dostu Elman İsmayılovla birlikdə düşmən gülləsinə tuş oldu. Sədini ağır yaralı vəziyyətdə Şərur rayon xəstəxanasına çatdırsalar da ölümün pəncəsindən xilas etmək mümkün olmadı. 22 yaşlı qəhrəman əbədiyyətə qovuşub doğma torpağında dəfn edildi.



# SƏMƏDOV ƏLİ SƏMƏD OĞLU

Əli 1969-cu il yanvar ayının 20-də Naxçıvan şəhərində anadan olub. 1976-cı ildə Naxçıvan şəhərindəki M. T. Sidqi adına 4 N-li səkkizillik məktəbin 1-ci sinfinə daxil olub. 1984-cü ildə natamam orta məktəbi bitirəndən sonra Naxçıvan şəhərindəki 32 N-li texniki-peşə məktəbinə qəbul olunub. Texniki-peşə məktəbini bitirib ordu sıralarına gedib. 1987-1989-cu illərdə Sovet Ordusunun tərkibində Almaniya Demokratik Respublikasında qulluq edib.

Əli Səmədov hərbi xidmətini bitirib doğma torpağa dönəndə qara buludlar almışdı Vətən səmasını...

O, 1990-cı ilin əvvəllərində könüllü olaraq ilk özünümüdafiə batalyonlarının tərkibinə daxil olub sərhəd bölgələrində erməni təcavüzkarlarına qarşı bir neçə döyüşlərdə iştirak etdi.

1992-ci il mayın 19-da Sədərək od-alov içərisində olanda düşmənə qarşı qəhrəmanlıqla vuruşan Əli Səmədov ağır yaralandı. Naxçıvan mərkəzi Respublika xəstəxanasındakı həkimlər də, onun tibb bacısı işləyən bacıları Gülnarə və Gülşən də on gün gecə-gündüz çalışsalar da Əlini ölümün pəncəsindən xilas edə bilmədilər.

O, 1992-ci il mayın 29-da gözlərini əbədi yumub şəhidlik zirvəsinə ucaldı. Ölümüylə anası Pərinin, qardaşı Bayramın, üç bacısının ürəyinə dağ çəkən 23 yaşlı Əli Səmədovun qəbri Naxçıvan şəhərindəki "Şəhidlər xiyabanı"ndadır.

# XUDAVERDİYEV SƏMƏD İMRAN OĞLU



Səməd 1973-cü ildə Ermənistanın Əzizbəyov rayonunun Kotanlı kəndində anadan olub. 1988-ci ildə azərbaycanlıların vəhşicəsinə Ermənistandan qovulduğu günlərdə Səmədgilin ailəsi də bu acını dadmış və öz dədə - baba yurdlarından qovulandan sonra Babək rayonunun Çalxanqala kəndində məskunlaşmışlar. Orta məktəbi Çalxanqalada bitirən Səməd 18 yaşı tamam olanda hərbi xidmətə çağırılmış, 1992-ci il may ayının 3-də isə daxil olduğu bölmənin tərkibində təlim keçmək, hərbi texnikanın sirlərini öyrənmək üçün Sədərəyə göndərilmişdir. Bundan 15-cə gün sonra da (mayın 18-də) xain ermənilərin Mil dağına ağır zirehli texnika ilə gözlənilməz güclü hücumu olur. Mil dağında düşmən qabağında son damla qanına qədər qəhrəmanlıqla vuruşub, şəhidlik zirvəsinə ucalanlardan biri də Səməd Xudaverdiyev olur.

# MƏMMƏDOV NÜSRƏT HÜSEYN OĞLU



Nüsrət 1973-cü il fevral ayının 10-da Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Sirab kəndində anadan olmuşdur.

1980-cı ildə Sirab kənd orta məktəbinin 1-ci sinfinə daxil olmuş, 8-ci sinfi bitirəndən sonra qiyabi məktəbdə orta təhsil almış və dərzilik sənətinə yiyələnmişdir.

Rayon hərbi komissarlığının göndərişi ilə sürücülük məktəbini bitirən Nüsrət bir ilə yaxın Azərbaycan Mineral Sular İstehsalat Birliyinin Sirab zavodunda sürücü işləyəndən sonra 1992-ci il yanvarın 15-də hərbi xidmətə getmiş, bir müddət Naxçıvanda qulluq edəndən sonra Sədərək bölgəsinə göndərilmişdir.

1992-ci il may ayının 18-də ermənilərin Sədərək üzərinə hücumu zamanı ən ön cəbhədə – Mil dağının müdafiəsində çox böyük qəhrəmanlıqlar göstərib şəhidlik zirvəsinə ucalan, ölümündən 10 gün sonra meyidlərini odlu nöqtədən çıxarmaq mümkün olan 17 igiddən biri də Nüsrət Məmmədov idi.

Naxçıvan şəhərindəki "Şəhidlər xiyabanı"nda dəfn olunan 19 yaşlı Nüsrət Məmmədov torpaqlarımızın müdafiəsi zamanı qəhrəmanlıqla şəhadətə qovuşanda nişanlı idi...



# ƏLİYEV MALİK QABİL OĞLU



**M**alik 1973 – cü ildə sentyabr ayının 1-də Babək rayonunun Zeynəddin kəndində anadan olub. Kənddəki orta məktəbi bitirəndən sonra 188 N-li texniki-peşə məktəbini, sonra isə sürücülük məktəbini bitirmişdi. Bir neçə ay kənddə sürücü işləyəndən sonra 1992-ci il yanvarın 24-də hərbi hissəyə çağırılmış, az sonra isə Sədərəyə göndərilmişdi.

Sədərəkdə hərbi xidmətdə olduğu qısa müddətdə özünü bacarıqlı və cəsur bir döyüşçü kimi göstərən Malik 1992-ci il mayın 18-də Sədərək üzərinə ermənilərin güclü hücumu zamanı da ilkin qabağa çıxıb cəsurluğunu göstərənlərdən oldu. Həmin gün Mil dağı uğrunda gedən döyüşlərdə son damla qanına qədər qəhrəmanlıqla vuruşub şəhidlik zirvəsinə ucalanlardan biri də Malik oldu. Qəbri Naxçıvan şəhərindəki "Şəhidlər xiyabanı"ndadır. İndi 188 N-li texniki-peşə məktəbi Malik Əliyevin adını daşıyır.

Doğulduğu Zeynəddin kəndində Malik Əliyevin büstü qoyulub.



# HÜSEYNOV ŞAMİL TELMAN OĞLU

Şamil 1972-ci ildə Culfa rayonunun Bənəniyar kəndində anadan olub. Hərbi xidmət yaşı çatanda Sovet Ordusunda xidmət etməkdən imtina edib. Naxçıvanda Milli Orduya ilkin yazılanlardan biri də Şamil Hüseynov olub. Doğma torpaqların qorunması üçün ön sırada gedənlərdən biri olan Şamil, 1992-ci il mayın 18-də Mil dağına ermənilərin ağır zirehli texnika ilə hücumu zamanı ölümə qarşı şəhidlik zirvəsinə tərəf ayaq üstə, şərəflə gedənlərdən biri olub...

Lap kiçik yaşlarından dinə böyük maraq göstərən, hər vaxt yanında möhür, təsbeh saxlayıb ibadət edən Şamilin meyidini ölümündən 10 gün sonra döyüş zonasından endirmək mümkün olanda, şəhid olan və meyidləri tanınmaz vəziyyətə düşən 16 əsgərin şəxsiyyətini xüsusi əlamətlərə görə müəyyənləşdirəndə Şamilin tanınmasına da cibindən çıxan möhür və təsbeh kömək etdi... O, doğulduğu Bənəniyar kəndində dəfn olundu.

## İBRAHİMOV ƏŞRƏF İBRAHİM OĞLU



Əşrəf 1973-cü ildə Ordubad rayonunun Baş Dizə kəndində anadan olub.

Milli Orduda xidmət borcunu yerinə yetirirdi. Azğın ermənilər Sədərək dağlarının arxasında hərbi qüvvələrini cəmləşdirdiyi ərəfədə, Sədərək kəndinin qara günlərinin yaxınlaşdığı ərəfədə Əşrəf də göndərilmişdi bu kəndin köməyinə... 1992-ci il mayın əvvəllərində Qaraburun, Qırmızılar ətrafında gedən döyüşlərdə öz hünəri ilə sübut etmişdi ki, Azərbaycan oğullarının hər biri üz-üzə döyüşdə, eyni silahla 5-6 nəfərinin cavabını verməyə qadirdir erməni dığalarının... Ancaq avtomat silahla səngərdə duran ərənlərin başı üstünü gözlənilmədən saysız tanklar, PDM-lər alanda, Allah göstərməsin o günü...

Əşrəf də belə bir günün qurbanı oldu...

1992-ci il mayın 18-də Mil döyüşündə əbədiyyətə qovuşdu o...



# ORUCOV MEHMAN RÖVŞƏN OĞLU

Mehman 1973-cü ildə Naxçıvanın ən gözəl guşələrindən olan Şahbuz rayonunda doğulub, burda da boya-başa çatmışdı. Hələ kiçik yaşlarından doğma torpağa bağlılıq, qurub-yaratmaq arzusu çağlayırdı Mehmanın ürəyində... Elə buna görə də 8-ci sinfi bitirən kimi 167 nömrəli texniki-peşə məktəbinə, oranı qurtarandan sonra isə Naxçıvan Politexnik Texnikumunun inşaat fakültəsinə daxil olmuşdu Mehman...

Deyir sən saydığını say, gör fələk nə sayır... Doğma torpağın başı üstünü yağı həmləsi alanda, bütün qeyrətli oğullar kimi Mehman da düşmən qabağına çıxdı, Milli Ordunun tərkibində Sədərək dağlarına düşdü onun döyüş yolları... Arzularını da, sözünü də 1992-ci il mayın 18-də Mil uğrunda gedən döyüşlərdə dedi Mehman... Sözünü dedi, elə həmin gün də şəhidlik zirvəsinə ucaldı o... Qəbri Naxçıvan şəhərindəki "Şəhidlər xiyabanı"ndadır.



# HƏSƏNOV FARİZ SABİR OĞLU

Qaraqaş, qaragöz, bəstəboylu bir oğlan idi Fariz. 1973-cü il iyunun 10-da Ordubad rayonunun ən gözəl guşələrindən olan, Dırnıs kəndində göz açmışdı dünyaya...

Kənddəki orta məktəbi bitirdikdən sonra o, atasının sürücü işlədiyi Naxçıvan Geoloji Kəşfiyyat Ekspedisiyasında bir neçə ay fəhlə işləmiş, sonra isə atasının peşəsinə yiyələnmək həvəsi yaranmışdı onda. Elə buna görə də sürücülük vəsiqəsini alandan sonra,1991-ci ilin dekabr ayında əsgər paltarı geyindi, üç aya yaxın Naxçıvanda xidmət edib, sonra da Sədərəyə göndərildi Fariz. Qəlbinə nə gəldisə 2-3 aydan sonra yaman darıxdı evləri üçün... Aprelin əvvəllərində icazə alıb evlərinə gəldi, uzun illərin həsrətlisi kimi görüşüb, öpüşdü doğmalarla, əzizlərlə... İcazəsi olsa da çox qala bilmədi doğma ocaqda, yenə qayıtdı Sədərəyə – odun-alovun içinə... Farizin bu gedişində heç kəsin ağlına gəlmədi ki, onun həyata "əlvida" deməsinə az qalır... Bilmədilər ki, yaxınlaşmaqda olan qara, müdhiş günlərin birində 1992-ci il mayın 18-də Mil döyüşlərində şəhidlik zirvəsinə ucalacaqdır Fariz...



# RAMAZANOV HİDAYƏT ƏJDƏR OĞLU

Hidayət 1973-cü ilin sentyabrın 6-da Culfa rayonunun Əbrəqunus kəndində anadan olub. Əbrəqunus kənd orta məktəbini bitirən il (1990) Samara Əlvan Metallurgiya texnikumuna qəbul olur. Texnikumda oxuyarkən hərbi xidmətə getmək üçün çağırış vərəqi olsa da Naxçıvana gəlir, 1991-ci il dekabr ayının 22-dən Naxçıvan Milli Ordusuna daxil olub hərbi xidmətə başlayır. İki ay Naxçıvanda xidmət edəndən sonra 1992-ci ilin fevral ayında ən odlu nöqtələrdən olan Sədərək kəndinə göndərirlər. Sədərəkdə qulluq etdiyi 3 ay müddətində bir neçə dəfə çətin hərbi tapşırıqları yerinə yetirir, xüsusi hörmət qazanır tay-tuşları arasında...

1992-ci il mayın 18-də Mil dağında gedən dəhşətli döyüşlərin ilk iştirakçılarından biri də Hidayət olur. Döyüşdən sağ çıxmağın mümkün olmadığını ilk anlardan hiss edən Hidayət bir neçə erməni quldurunu məhv edəndən sonra ayaq üstə gedir ölümə qarşı... Elə həmin gündə də qəhrəmanlıqla şəhid olur. İndi Culfa rayonundakı Əbrəqunus kənd internat məktəbi şəhid Hidayət Əjdər oğlu Ramazanovun adını daşıyır.





# İSMAYILOV FƏRMAYIL İSMAYIL OĞLU

Fərmayıl 1973-cü ildə Şahbuz rayonunun Badamlı qəsəbəsində anadan olub. 1991-ci ildə Sələsüz kənd orta məktəbini bitirib. Orta məktəbi bitirən kimi uzun illər atası İsmayılın fəhlə işlədiyi Badamlı mineral sular zavodunda əmək fəaliyyətinə başlayır. Bir neçə ay həmin zavodda fəhlə işləyəndən sonra Bakı şəhərinə gedib, 22 nömrəli texniki-peşə məktəbinə daxil olur, çilingər peşəsinə yiyələnəndən sonra yenə öz iş yerinə qayıdır. Hərbi xidmət yaşı çatan Fərmayıl çağırış vərəqəsini gözləmədən Milli Ordu rəhbərliyinə müraciət edib orduya daxil olur, bir neçə ay Naxçıvanda qulluq edəndən sonra döyüş dostları ilə birlikdə Sədərək kəndinə göndərirlər onu. Sədərək kəndinin ən ağır günlərinin birində 1992-ci il mayın 18-də Mil dağında ermənilərin ağır zirehli texnikasının qarşısına avtomat silahla çıxanlardan biri də Fərmayıl olur... Həmin gün qəhrəmanlıqla şəhid olub, 10 gün də "naməlum döyüşçülər" adı ilə axtarılan 16 igiddən biri... Şəhidlik zirvəsinə ucalandan 10 gün sonra doğma torpağa tapşırılanlardan biri... Onun qəbri Naxçıvan şəhərindəki "Şəhidlər xiyabanı"ndadır.

---

4. ŞİRVANNƏŞR, 13(60), 1998.

# ƏLƏKBƏROV VAHİD ZAHİD OĞLU



Vahid 1973-cü ildə Şahbuz rayonunun Badamlı kəndində anadan olub. Kənddə orta məktəbi bitirəndən sonra hərbi xidmətə çağırılıb, Azərbaycan Milli Ordusunun tərkibində tale onu Sədərək dağlarına gətirib.

Sədərəyin ən dəhşətli günlərinin birində 1992-ci il mayın 18-də Sədərək üzərinə ermənilərin vəhşicəsinə hücumu zamanı Mil dağı uğrunda son damla qanına qədər vuruşub qəhrəmanlıqla şəhid olanlardan biri də Vahid Ələkbərov olub. Ölümündən 10 gün sonra meyidini şəhid olduğu yerdən götürmək mümkün olan 16 nəfərdən biri olan Vahid Ələkbərov Naxçıvan şəhərindəki "Şəhidlər xiyabını"nda dəfn olunub.



# HÜSEYNOV COŞQUN HÜSEYN OĞLU

Coşqun 1973-cü il aprel ayının 13-də Culfa rayonunun Teyvaz kəndində anadan olub. Kənd məktəbində 8-ci sinfi bitirən Coşqun 129 N-li Yaycı texniki – peşə məktəbinin Qazançı kəndindəki filialında traktorçu-mexanizator peşəsinə yiyələnib.

1991-ci ildə hərbi xidmətə aparılıb. Rus ordusunda xidmət etməkdən imtina edib. Dekabrın sonlarında Azərbaycan Milli Ordusunun tərkibinə daxil olub. Xidmət etdiyi bölmə 1992-ci il martın 1-də Sədərək ətrafına göndərilib.

1992-ci il mayın 18-də səhərin alatoranında vəhşi ermənilərin Mil dağına qəfil hücumu zamanı Mili qəhrəmanlıqla müdafiə edənlərdən biri də Coşqun olub. Elə həmin döyüşdə də son damla qanına qədər vuruşub, orda da əbədiyyətə qovuşub. Səkkiz qardaşın ən kiçiyi olsa da, o, öz qanı bahasına uca zirvələrə qalxdı, müqəddəs amalı ilə doğulduğu torpağı da müqəddəsləşdirdi.



# HƏSƏNOV MÜŞFİQ HÜSEYNQULU OĞLU



Müşfiq 1973-cü il fevral ayının 23-də Naxçıvan MR Şahbuz rayonunun Kükü kəndində anadan olub.

1979-cu ildə Kükü kənd orta məktəbinə daxil olub, 1989-cu ildə həmin məktəbin onuncu sinfini bitirmişdir. 1990-cı ildə Naxçıvan Kənd Təsərrüfat texnikumuna daxil olmuş, bir il oxuyandan sonra Sovet ordusuna hərbi xidmətə gedərək, 1992-ci ilin fevral ayına qədər Kaluqa vilayətində qulluq etmişdir.

Vətənin ağır günündə Sovet ordusunda xidmət etməkdən İmtina edib doğma yurda qayıdaraq,1992-ci ilin mart ayında Naxçıvan Milli Ordusuna daxil olmuş, bir qədər Naxçıvanda qulluq edəndən sonra Sədərək bölgəsinə göndərilmiş, 1992-ci il mayın 18-də Mil uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla şəhid olmuşdur.



## ABBASOV MEHMAN MUSA OĞLU

Mehman 1973-cü ildə Sədərək kəndində anadan olub. 1990-cı ildə kənddəki 2 N-li orta məktəbi bitirəndə, ali məktəbə qəbula gedənlərə yox, ağır günlərini yaşayan Sədərək kəndinin könüllülərinə qoşulub düşmən qabağına çıxdı. 1990-cı il yanvarın 19-da Sədərək nümunəvi qəsəbəsindəki "Künbəz"ə dəyən düşmən zərbəsindən həlak olan şəhidlərin və yaralıların daşınmasında fəallıq göstərənlərdən biri də Mehman oldu. Bir az da qorxdu o faciəli mənzərəni görəndə... 20 gün də xəstəxanada yatdı... 1990-1992-ci illərdə Sədərək könüllülərinin tərkibində düşmənə qarşı vuruşdu. 1992-ci ildə həqiqi hərbi xidmətə getdi. Kəlbəcərdən, Ağdərədən, Tərtərdən keçdi döyüş yolları. Az qalırdı hərbi xidmətinin qurtarmasına. Elə buna görə də 1996-cı ilin Novruz sevincli mart günlərində doğulduğu kəndə gəldi. Nişan qoydular ona... 1992-ci ilin mayında bacısının nişanlısı Eldarın şəhid olduğunu ani olaraq xatırlasa da, nişanlı kimi böyük arzularla, ümidlə, sevinclə qayıtdı cəbhəyə. Ancaq çox sürmədi bu sevinci... 1996-cı il avqustun 5-də Tərtərdə şəhid oldu. Dəfn də avqustun 7-də Sədərəyin "Şəhidlər xiyabanı"nda oldu...

# HƏZİYEV NAMİQ ƏYYUB OĞLU



Namiq 1974-cü ildə Babək rayonundakı Zeynəddin kəndində anadan olub. Həmin kənddə orta məktəbi bitirib. 1992-ci ilin payızında hərbi xidmətə gedib, bir neçə ay Qıvraq kəndindəki hərbi hissədə qulluq edib, sonralar Sədərək regionuna göndərilib.Sədərək sərhədlərinin qorunması üçün bir sıra mühüm döyüş əməliyyatlarında iştirak edib. 1995-ci il aprel ayının 25-də səhər saat 9 radələrində "Ağ oğlan" postu istiqamətində hərbi tapşırığı yerinə yetirərkən faciəli surətdə həlak olub, əbədiyyətə qovuşub. Doğulduğu Zeynəddin kəndində Namiq Həziyevin büstü qoyulub.



# MƏMMƏDOV KAMRAN CƏBRAYIL OĞLU

Kamran 1975-ci il yanvar ayının 11-də Şərur rayonunun Yurdcu kəndində anadan olmuş, 1982-1992-ci illərdə kənddə orta məktəbi bitirmişdir.

1993-cü ilin iyun ayının 18-dən Azərbaycan Milli Ordusunda növbəti hərbi xidmətə başlayıb. İlk günlərdən hərbi hissədə cəsurluğu, zirəkliyi ilə fərqlənən Kamran 1994-cü il may ayının əvvəllərində qulluq etdiyi 754 N-li hərbi hissənin tərkibində Sədərək bölgəsinə göndərilib. Mayın 27-də Günnüt kəndi yaxınlığındakı Qurdbaba yüksəkliyində gedən döyüşdə 400-450 nəfər azğın erməniyə qarşı son damla qanına qədər qəhrəmanlıqla vuruşan 36 nəfərdən biri də Kamran Məmmədov olub. Son məqamda düşmən əlinə diri keçməmək üçün öz patronu ilə həyata "əlvida" deyən Kamranın meyidi ölümündən bir gün sonra düşməndən alınıb doğma torpaqda dəfn edilib. 754 N-li hərbi hissənin komandiri, mərhum mayor Elşad Nağıyevin və qərargah rəisi E. Süleymanovun imzaladıqları xasiyyətnamədə Kamranın qəhrəmanlığından geniş bəhs edilir.

# ƏLİYEV MƏHƏMMƏD NURƏDDİN OĞLU



Məhəmməd 1973 – cü il iyul ayının 18-də Şərur rayonunun Xok kəndində anadan olub. 1980-1990-cı illərdə Xok kənd orta məktəbində oxuyub. 187 N-li texniki-peşə məktəbində çilingərlik ixtisası alıb.1992-ci il iyun ayının 2-də hərbi xidmətə gedib. Bir müddət Naxçıvan şəhərində qulluq edəndən sonra Mili Ordunun iərkibində Sədərək bölgəsinə göndərilib. 1992-ci il mayın 18-də azğın ermənilərin Sədərək ətrafında (Mil dağında) törətdikləri vəhşilik Məhəmmədin qəzəbini daha da coşdurmuş, o, öz döyüş yoldaşlarının intiqamını almağa söz vermişdi. Öz ölümündən qorxmayan Məhəmməd dəfələrlə ağır döyüşlərin iştirakçısı olmuş, bir neçə tapşırıqları yerinə yetirmişdi. Növbəti hərbi tapşırığı yerinə yetirərkən, 1992-ci il sentyabr ayının 20-də Mil dağındakı döyüş mövqeyinə düşmənin atdığı minamyot atəşindən Məhəmməd Əliyev şəhid olmuşdur.



# VƏLİYEV RÖVŞƏN NİZAM OĞLU

Rövşən 1973-cü ildə Xaçmaz rayonunun Aşağı Zeyid kəndində anadan olub. 1980-1990-cı illərdə doğulduğu kənddə orta təhsil alıb.

1991-ci ildə Azərbaycan Milli Ordusu sıralarına çağırılmış, hərbi xidməti Naxçıvan Muxtar Respublikasının Sədərək bölgəsində keçmişdir.

777 saylı hərbi hissədə qulluq edən Rövşən Vəliyev bir neçə dəfə ağır döyüşlərin iştirakçısı olmuş, düşmənin dəf edilməsi üçün aparılan gərgin əməliyyatlarda fəallıq göstərmişdir.

Rövşən Vəliyev 1992-ci il noyabrın 24-də çox mühüm bir hərbi tapşırığı yerinə yetirərkən qəhrəmanlıqla şəhid olmuşdur.

Hazırda Xaçmaz rayonundakı Aşağı Zeyid kənd orta məktəbi,həmin məktəbi bitirib Sədərəkdə şəhid olan Rövşən Vəliyevin adını daşıyır.

## HƏSƏNOV NEMƏT ARİF OĞLU



Nemət 1974-cü il may ayının 6-da Gəncə şəhərində anadan olub. 1980-1988-ci illərdə Gəncə şəhər 4 saylı rus dili təmayüllü məktəbin 8-ci sinfinədək təhsil almış, 8-ci sinfi bitirəndən sonra atasını vaxtsız itirdiyi üçün ailə qayğıları ilə məşğul olduğundan təhsil ala bilməmiş, 1992-ci ilin iyun ayından hərbi xidmətə çağırılmış, bir müddət Naxçıvan Muxtar Respublikasının Culfa rayonunda xidmət etmiş, sonra Sədərək bölgəsinə göndərilərək bu torpağın düşməndən müdafiə olunmasında böyük qəhrəmanlıqlar göstərmişdir.

1994-cü il may ayının 27-də Qurdbaba dağındakı yüksəklik uğrunda gedən döyüşlərdə 36 nəfərlə 400 nəfərdən artıq erməniyə qarşı vuruşub, düşmənin xeyli qüvvəsini məhv edən, son məqamda düşmən əlinə diri keçməmək üçün sinəsinə güllə çaxıb şəhidlik zirvəsinə ucalanlardan biri də Nemət Arif oğlu Həsənov olub. Sədərəyin müdafiəsində qəhrəmanlıqla şəhid olan Nemət Həsənov doğulduğu torpaqda dəfn edilib.



## TAĞIYEV AZƏR NEMƏT OĞLU

Azər 1966-cı ildə Babək rayonunun Sovetabad kəndində anadan olub. Naxçıvan şəhər 3 saylı məktəbi bitirəndən sonra Kalininqrad Ali Hərbi məktəbinə qəbul olsa da bir neçə ay oxuyandan sonra təhsilini yarımçıq qoyub Vətənə – Naxçıvana qayıdır. Az sonra onu hərbi xidmətə çağırırlar. Tale yenə onu Vətəndən uzaqlara aparır. Hərbi xidmətini Çexoslavakiyada başa vurur. Hərbi xidmətini başa vurub doğma torpağa dönəndən sonra 1991-ci ilin ortalarında ailə həyatı qurur. 1992-ci iln Novruz bayramında da ata olur Azər... Kənan qoyurlar övladının adını... Azərin ata kimi qürur duyub, sevinclə yaşadığı günlərin birində 1992-ci il may ayının 2-də xain ermənilər hücum edir Sədərək üzərinə. Azər düşmənə qarşı mərdliklə vuruşur həmin döyüşdə, mayın 6-da olan döyüşdə də Azər böyük şücaətlər göstərir. Ancaq mayın 18-də Sədərək üzərinə olan qəfil hücum günü Azərin də əbədiyyətə qovuşub şəhidlik zirvəsinə ücaldığı gün olur. Həmin gün Mil dağı uğrunda gedən döyüşlərdə son damla qanına qədər vuruşub qəhrəmancasına şəhid olan 17 nəfərdən biri də Azər olur.



# ƏLİYEV ELXAN VƏLİ OĞLU

Elxan 1972-ci il mayın 22-də Sədərək kəndində anadan olub. Sədərək kənd 1 N-li orta məktəbi bitirib,1991-ci ilin axırlarında hərbi xidmətə gedib. 6 aya yaxın Ukraynada qulluq edəndən sonra Vətənin düşmən təcavüzündə qaldığını eşidib geri dönüb. Sədərəkdə yaradılan könüllü özünümüdafiə hissələrinin tərkibində kəndin Əjdəkan, Qarağac və Cin təndiri postlarında aylarla keşik çəkib. 1994-cü il yanvarın 14-də ərizəsi ilə yenidən hərbi xidmətə gedib.

Bir neçə ay Naxçıvanda qulluq edib. Sonra könüllü olaraq Qarabağa getmək üçün ərizə verib. Ağdamın bir neçə kəndinin müdafiəsində iştirak edib. Döyüş dostlarından 3 nəfərin meyidinin düşmən əlinə keçməsinin qarşısını alıb. Üzüzə döyüşdə iki erməni quldurunu məhv edib. 1994-cü ilin martın 22-də Ağdamın Qaravənd kəndi uğrunda gedən döyüşdə bir ayağını itirib. Bakıda 2 aya yaxın müalicə olunsa da həyata qayıtması mümkün olmayıb, əbədiyyətə qovuşub. Xəstəxanada olduğu müddətdə dünyaya gələn ilk övladını görə bilməyib. 1994-cü il mayın 26-da Sədərəyin "Şəhidlər xiyağanı"da dəfn olunub.



# ƏSGƏROV ABDULLA RZA OĞLU

Abdulla 1955-ci ildə Sədərək kəndində anadan olub, Sədərəkdə orta məktəbi bitirib. 1974-1976-cı illərdə Sovet Ordusu sıralarında xidmət edib.

1977-ci ildə Naxçıvan şəhərində sürücülük peşəsinə yiyələnib. Həmin vaxtdan ömrünün sonuna qədər Sədərək üzümçülük sovxozunda sürücü işləyib.

1990-1992-ci illərdə Sədərək kəndinin müdafiəsi zamanı könüllü dəstələrinin tərkibində döyüşlərdə iştirak edib. 1992-ci il iyul ayının 5-də şəhid olub. Ailəli, dörd uşaq atası idi.

# MƏMMƏDOV SURƏDDİN ORUC OĞLU



Surəddin 1973-cü ildə Babək rayonunun Sust kəndində anadan olub. Sonralar ailələri Böyükdüz kəndinə köçdüyündən, Surəddin Böyükdüz kənd orta məktəbini bitirəndən sonra Naxçıvan şəhərində sürücülük kursunu bitirmiş və 1991-ci ilin may ayında Sovet Ordusu sıralarında xidmət etməyə göndərilmişdir. Bir neçə ay Estoniyada qulluq edəndən sonra Naxçıvanda vəziyyətin gərginləşdiyini, azğın ermənilərin Naxçıvana qarşı təcavüzünün gücləndiyini eşidib bir başa Naxçıvana gəlir, Müdafiə Komitəsinə gedib hardan gəlməsini və məqsədini deyir. Onu Milli Ordunun "idman rotasına" daxil edirlər. Bir başa da Sədərəyə göndərirlər. 1992-ci il mayın əvvəllərində Qaraburun və Mil uğrunda gedən döyüşlərdə böyük şücaətlər göstərir, məşhur "18 may" döyüşündə bir neçə erməni quldurunu məhv edir, 2 nəfər yaralı döyüşçünün girov düşməməsi Surəddinin şəxsi şücaəti sayəsində olur.

Surəddin Məmmədov 1992-ci il iyulun 17-də Mil dağında snayper gülləsinə tuş gəlib şəhidlik zirvəsinə ucalmışdır.

# ƏBÜLHƏSƏNOV HİDAYƏT ALLAHVERDİ OĞLU



Hidayət 1967-ci ildə Şərur rayonunun Dəmirçi kəndində anadan olub. Kənddəki orta məktəbi bitirəndən sonra texniki-peşə məktəbinə qəbul olub. Texniki-peşə məktəbini bitirəndən sonra, Sovet Ordusu sıralarına çağırılıb. Ukraynada hərbi xidmətdə olub. Əsgərliyini bitirib doğma torpağa dönən Hidayət bir müddət 57 N-li Sədərək MSD-də fəhlə işləyib. Vətənin üstünü qara buludlar alanda Hidayəti milis orqanlarına işə qəbul ediblər. Elə həmin günlərdən də o, silah götürüb Sədərək sərhədlərinin keşiyini çəkməyə gedib. 1992-ci il mayın əvvəllərində Qarağac, Ucubiz və Qaraburun döyüşlərində böyük fədakarlıqlar göstərib.

1992-ci il iyul ayının 12-də Mil dağında, 3-cü postda erməni quldurlarına ağır zərbələr vurandan sonra qəhrəmanlıqla şəhid olub.

# SEYİDOV MİRƏYYUB MİRYUSİF OĞLU



Mirəyyub 1966-cı il yanvar ayının 1-də Culfa rayonunun Camaldın kəndində anadan olub. Kənddə səkkizinci sinfi bitirəndən sonra texniki-peşə məktəbinə daxil olub, dülgərlik sənətinə yiyələnib. İrkutsk şəhərində Sovet Ordusu sıralarında hərbi xidmətdə olub. Hərbi xidməti başa vurandan sonra bir müddət Culfa rayon Yerli İstehsalat Kombinatında fəhlə işləyib.

Vəziyyətin gərginləşdiyi bir vaxtda Mirəyyub Culfa rayon Daxili İşlər şöbəsində milis serjantı kimi işə qəbul edilib. O, milis işçisi kimi Muxtar Respublikanın sərhədlərinin erməni təcavüzündən qorunmasında yaxından iştirak edib, bir neçə ağır döyüşlərin iştirakçısı olub.

Mirəyyub Seyidov 1992-ci il iyun ayının 23-də Sədərəyin müdafiəsi zamanı şəhid olub. Ailəli, iki uşaq atası idi. Camaldın kənd orta məktəbi indi Mirəyyub Seyidovun adını daşıyır.



# SƏFƏROV MÜŞFİQ QASIM OĞLU

Müşfiq 1973-cü il sentyabr ayının 11-də Şərur rayonunun Yurducu kəndində anadan olub. Kənddə orta məktəbi bitirəndən sonra bir müddət inşaat briqadasında fəhlə işləyib.

1991-ci ilin sonlarında hərbi hissəyə çağırılıb. Dekabr ayında hərbi xidmətə gedən Müşfiqin cəldliyini, çevikliyini görüb onu Milli Ordunun "İdman rotası"na daxil ediblər. Bir müddət Naxçıvanda qulluq edəndən sonra Sədərək bölgəsinə göndərilib.

1992-ci il mayın 18-də dəhşətli Mil döyüşündə son damla qanına qədər vuruşub şəhidlik zirvəsinə ucalan qəhrəman döyüşçülərindən biri də Müşfiq Səfərov olub.

Mildə snayperlə alnından vurulan 19 yaşlı Müşfiq mayın 19-da Naxçıvan Respublika xəstəxanasında əbədi olaraq gözlərini yumub.

---

5. ŞİRVANNƏŞR, 13(60 ), 1998.

# TAĞIYEV RÜSTƏM RƏŞİD OĞLU



**A**tası Şərurun İbadulla kəndindən olsa da, bir müddət Rusiyada yaşadıqları üçün Rüstəm 15 avqust 1973-cü ildə Ulan-Ude şəhəri yaxınlığındakı Kamensk qəsəbəsində anadan olub. Uşaqlıq dövrü Rusiyada keçən Rüstəm 1990-cı ildə Şərur rayonundakı 1 N-li orta məktəbin rus bölməsini bitirib.Rus dilini mükəmməl bilməsini, Rusiya həyatı ilə tanışlıq, orta məktəbdə idmana və hərbi oyunlara böyük marağı olan Rüstəm 1991-ci ilin dekabrında hərbi xidmətə gedəndə də Milli Ordunun "idman rotası"na daxil edilir və orada da çəldliyi, çevikliyi ilə öz yoldaşlarından fərqlənir.

1992-ci ilin may ayının 18-də Sədərək üzərinə xain ermənilərin vəhşicəsinə hücumu zamanı ön cəbhədə – Mil dağının müdafiəsi zamanı son damla qanına qədər vuruşub qəhrəmanlıqla şəhid olanlardan biri də Rüstəm Tağıyev olmuşdur.



# SARIYEV SƏİD ƏHƏD OĞLU

Səid 2 sentyabr 1974-cü ildə Beyləqan rayonunun Dünyamalılar kəndində anadan olub. 1991-ci ildə həmin kənddə orta məktəbi bitirmişdir. Orta məktəbi bitirəndən sonra Sabirabad rayonunda 32 N-li qaçqın inşaat trestində fəhlə İşləmiş, 1992-ci ilin sentyabr ayında hərbi xidmətə getmişdir. Əvvəlcə Şərur rayonunda, sonralar isə Sədərək bölgəsində hərbi xidmətdə olmuşdur. Hərbi xidmətdə olarkən o, 759 N-li hərbi hissənin 3-cü bölüyündə mexanik işləmişdir.

Səid Sarıyev 1994-cü il yanvarın 26-da Sədərək yaxınlığındakı "Qara burun" postunda öz xidməti vəzifəsini yerinə yetirərkən şəhid olmuş, yanvarın 28-də Beyləqan rayonundakı Dünyamalılar kəndinin "Şəhidlər xiyabanın"nda dəfn olunmuşdur.

## HÜSEYNOV ARAZ SƏMƏD OĞLU



Araz 8 oktyabr 1974 - cü ildə Tovuz rayonunun Aşağı Öysüzlü kəndində fəhlə ailəsində anadan olub. 1991-ci ildə kənddəki 1 N-li orta məktəbi bitirib. 1992-ci ildə könüllü olaraq həqiqi hərbi xidmətə gedib. Sədərək döyüşlərində çox igidlərin qanı bahasına qorunan Mil dağının ətrafında gedən döyüşlərdə iştirak edib. Dəfələrlə döyüş dostlarının ağır yaralı vəziyyətdə səngərdən çıxarılmasında şücaətlər göstərib.

1993-cü il dekabrın 28-də günortaüçtü Mil dağı ətrafındakı 3-cü posta edilən düşmən həmləsinin qarşısını öz döyüş dostları ilə birlikdə alsa da özünü qoruya bilmədi. 1994-cü il yanvarın 2-də Naxçıvan hərbi qospitalında həyata "əlvida" dedi... Doğma Tovuzun "Şəhidlər xiyabanı"nda dəfn edildi. Adı da vaxtilə təhsil aldığı orta məktəbə verilməklə əbədiləşdirildi.

## XANLAROV ELMİDAR NURƏDDİN OĞLU



Elmidar 2 avqust 1971-ci ildə Ermənistanın Vardenis rayonunun Əzizli kəndində anadan olmuşdur. 1988-ci ildə həmin kənddəki orta məktəbi bitirən il ermənilər tərəfindən doğma torpaqlarından ailəlikcə köçürülməyə məcbur olmuşlar. Əvvəlcə Xanlar rayonunun Hacıkənd qəsəbəsində, sonra Şuşa şəhərində, Xanlar rayonunun Çaykənd kəndi ermənilərdən təmizləndən sonra isə Çaykənddə yaşamağa başlayıblar. Lap gənc yaşlarından erməni vəhşiliyini görən, taleyinə köçkünlük düşən E. Xanlarov hələ Hacıkənddə yaşayarkən yerli özünümüdafiə batalyonlarına yazılaraq Sarısu kəndinin müdafiəsində, sonralar Şuşanın müdafiəsində iştirak etmiş, gələcək döyüşlər üçün bir növ təcrübə toplamışdır. 1992-ci il iyunun 5-də o, hərbi xidmətə getdi, az sonra 777 N-li hərbi hissənin tərkibində Sədərəyə göndərildi. Sədərəkdə bir sıra döyüşlərdə iştirak etdi. Mahir snayper atıcısı idi. Hər gün düşmən səngərindən 2-3 nəfəri "dənləyirdi"... 1992-ci il iyunun 28-də səhər-səhər sərrast atəşlə erməni "boyevik"lərinin başçısını vurmaqla od qoydu düşmənə... Bir neçə saat sonra da səngərə salınan qumbaradan 16 nəfər yaralındı, Elmidar da şəhid oldu.

# MƏMMƏDOV BƏHLUL MUSA OĞLU



Bəhlul Şərurun Qarabağlar kəndində göz açmışdı dünyaya. Sadə peşə sahibi olan atasının yanında lap uşaq yaşlarından öyrənmişdi sürücülük peşəsini də. Doğma torpağın başı üzərini qara buludlar alanda həqiqi hərbi xidmətə çağırıldı. 5-6 ay əvvəl toyu olan Bəhlulu Vətənin müdafiəsinə göndərəndə xeyir-duasını atası Musa kişi, anası Telli xala, bir də nənəsi Nardanə nənə vermişdi. Tale Sədərək döyüşlərini qismət etdi ona. Həm döyüşlərdə iştirak edir, həm də komandliri Nəsib Ağayevin "QAZ-69" markalı maşınını idarə edirdi Bəhlul. Elə isinişmişdi ki, komandirinə, ən ağır anlarda da ayrılmaq istəmirdi ondan. Qəfil ölüm də birlikdə yaxaladı onları. 1992-ci il noyabrın 28-dən 29-na keçən gecə xidməti vəzifəni yerinə yetirərkən komandiri Nəsib Ağayev və qardaşı, sıravi döyüşçü Musa Ağayevlə birlikdə faciəli surətdə həlak oldu Bəhlul... Ölümündən az sonra dünyaya gələn oğlunun adını Bəhlul qoydular. Şəhid atasının yarımçıq arzularını yaşatmaq üçün.



## AĞAYEV QULU İBRAHİM OĞLU

Qulu 1948-ci ildə Culfa rayonunda anadan olub. 1990-cı il yanvarın 19-da ermənilər Sədərəyə hücum edəndə olduğu kimi, 1992-ci il mayın 18-də Sədərək erməni təcavüzünə məruz qalanda da Sədərəyin köməyinə ilkin çatanlardan biri də Culfa rayonunun könüllüləri oldu. Qulu Ağayevin daxil olduğu könüllü dəstəsi ən odlu nöqtəyə – qayaları qan rənginə boyanmış "Mil" dağına göndərildi. Ermənilərlə üz-üzə dayanmış 3-cü postda ağır döyüşlərin iştirakçısı oldular, bir neçə yaralını odlu nöqtədən çıxaran Qulunun özünü də növbəti həmlədən sonra döyüş dostları ağır yaralı vəziyyətdə "Mil" dağından Koroğlu bulağına tərəf endirsələr də onu ölümün pəncəsindən xilas etmək mümkün olmadı.

Beləcə şəhidlik zirvəsinə ucaldı Qulu Ağayev. Evli idi, iki övladı qalıb.

# NƏSİBOV VÜQAR ŞƏMİL OĞLU



Vüqarın atası Şərur rayonunun Yengicə kəndindən olsa da ailəlikcə Ordubada köçüblər. Vüqar 1972-ci ildə Ordubadda anadan olub. Orta təhsilini M. Füzuli adına Ordubad şəhər internat məktəbində alıb. Orta təhsilini başa vurandan sonra zabit olmaq arzusu ilə Ulyanovsk şəhərinə – Ali hərbi məktəbə getsə də, məktəbə qəbul ola bilməyib.

1991-ci ilin may ayının sonlarında hərbi xidmətə gedib. Hərbi xidmətə Ukraynada başlasa da doğma Naxçıvanın başı üstünü qara buludlar aldığını eşidən Vüqar 1992-ci ilin yanvar ayında rus ordusunu tərk edib Naxçıvana qayıdır. Naxçıvan alayında qulluq edir. Mayın ortalarında könüllü olaraq Sədərək bölgəsinə gedir. V. Nəsibov ilk günlərdə ön cəbhədə od-alov içərisində olur. O, 1992-ci il mayın 20-də qəhrəmanlıqla şəhid olmuşdur.



# ZEYNALOV MAHMUD ZEYNALABDİN OĞLU

Mahmud 1962-ci ildə Culfa rayonunun Ərəzin kəndində anadan olub. Kənddə orta məktəbi bitirib. Rusiyanın Ryazan şəhərində hərbi xidmətdə olub.

Naxçıvan Müdafiə Komitəsinin Milli Ordusunda tağım komandiri idi. Sədərəyin ağır günlərində bu bölgəyə göndərilmiş,1992-ci ilin may ayında olan döyüşlərdə xüsusi fəallıq göstərmiş, hərbi hissədə qulluq etməsinə baxmayaraq Culfa rayonundan gələn könüllü dəstələrinin nizami qaydada təşkil olunub lazımi istiqamətlərə göndərilməsində, yaralıların odlu nöqtələrdən çıxarılıb xəstəxanalara göndərilməsində də rolu çox olmuşdur. 1992-ci il sentyabrın 19-da Mil dağı uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla şəhid olub. Doğulduğu kənddə dəfn olunub. Ailəli idi. Aysel adlı bir qızı qalıb. Culfa rayonundakı Ərəzin kənd orta məktəbi indi Mahmud Zeynalovun adını daşıyır.

# İSMAYILOV MEHMAN QURBAN OĞLU



Mehman 1974-cü il iyul ayının 2-də Sədərək kəndində anadan olub. Kənddə orta məktəbi bitirib. 1992-ci ildə könüllü dəstələrinə qoşulub kəndin müdafiəsində iştirak edib. 1994-cü ilin aprel ayında hərbi xidmətə çağırılıb. Culfa rayonunda 777 N-li hərbi hissənin tərkibində xidmət edib. Sonralar Babək rayonunun Yuxarı Buzqov kəndinə göndərilib.

1994-cü il noyabrın 14-də erməni quldurlarının birbaşa səngərə hücumu zamanı ağır yaralanıb, iki gün sonra (noyabrın 16-da) Naxçıvan şəhər hərbi qospitalında əbədi olaraq gözlərini yumub. Doğulduğu Sədərək kəndində dəfn olunub.

## ABBASOV RAMİQ İLYAS OĞLU



Ramiq 1974-cü ildə Şərur rayonunun Çərçiboğan kəndində anadan olub. Kənddəki orta məktəbi bitirəndən sonra hərbi xidmətə gedib. 8 iyul 1993-cü il tarixdən şəhid olduğu günə qədər (27 may 1994-cü il) 754 N-li hərbi hissədə qulluq edib. Günnüt kəndi yaxınlığındakı Qurdbaba yüksəkliyində qəhrəmanlıqla şəhid olan 6 nəfərdən biri də Ramiq Abbasovdur. Qulluq etdiyi hərbi hissənin komandiri, mayor mərhum Elşad Nağıyevin və qərargah rəisi kapitan E. Süleymanovun Ramiqin valideynlərinə göndərdikləri 29/V-94 tarixli 68 N-li məktubda oxuyuruq: "Oğlunuz Ramiq Abbasov 1994-cü il 27 may tarixdə 36 nəfərdən ibarət olan tağımla öz döyüş mövqelərində cəsarətlə və mərdliklə durarkən 400-450 nəfərə yaxın rus və erməni birləşmələrindən ibarət olan qoşunun hücumunun qabağını alaraq düşmənin çoxlu canlı qüvvəsini məhv etmiş, öz döyüş yoldaşlarının mühasirədən çıxarılmasına köməklik göstərmiş, düşmən əlinə keçməmək üçün son damla qanına qədər vuruşub qəhrəmanlıqla həlak olmuşdur."

# ŞAHVERDİYEV MÜBARİZ İSLAM OĞLU



Mübariz Sədərək kəndində doğulub. Kənddəki orta məktəbi bitirib. Doğma torpağı qarış-qarış tanıyan Mübariz Sədərək döyüşlərində öz döyüş dostlarına bir bələdçi kimi də yaxından köməklik göstərir, onları bir çox təhlükədən xilas edirdi. Ancaq özü sovuşa bilmədi yağı düşmənin ona tuş etdiyi təhlükədən. 1994-cü il mayın 26-dan 27-nə keçən gecə, növbədə olduğu Qurdbaba dağındakı postda son damla qanına qədər vuruşub qəhrəmanlıqla şəhid oldu. Doğulub böyüdüyü, torpağına qanını axıtdığı doğma Sədərəyin "Şəhidlər xiyabanı"nda da dəfn olundu Mübariz...



# ƏLİYEV ELBURUS ƏLƏKBƏR OĞLU

Elburus 1973-cü ildə Babək rayonunun Çeşməbasar kəndində anadan olub. Kənddə orta məktəbi bitirib. Ali məktəbə qəbul imtahanlarının axırıncısından kəsilən Elburus Naxçıvan Yol Təmiri İdarəsində bir müddət fəhlə işləmiş, 1992-ci ilin mart ayının 23-də hərbi xidmətə çağırılmış, əvvəlcə Naxçıvanda, sonra isə Sədərəkdə hərbi xidmətdə olmuşdur.

1992-ci il may ayının 18-də səhərin alatoranında azğın ermənilər Sədərək üzərinə ağır zirehli texnika ilə qəflətən hücum edəndə Elburus Ucubiz dağının zirvəsində postda idi. Elə o ucalıqda da son damla qanına qədər vuruşub qəhrəmanlıqla həlak olan Elburus həmin gün daha uca bir zirvəyə – şəhidlik zirvəsinə ucaldı və əbədiyyətə qovuşdu.



# CANMƏMMƏDOV VƏLİ ELDAR OĞLU

Vəli 1971-ci ildə Şərur rayonunun Qıvraq kəndində anadan olub. Kənddə orta məktəbi bitirəndən sonra Rusiyada Sovet Ordusunda hərbi xidmətdə olub.

Doğma Naxçıvanın başı üstünü qara buludlar alanda Vətənə dönüb, Naxçıvan Milli Ordusunun tərkibində Sədərək bölgəsinə göndərilib.

1992-ci ilin may ayının əvvəllərində Qaraburun dağında, mayın 18-də Mil uğrunda gedən döyüşlərdə fəallıq göstərib. 1992-ci il iyul ayının 1-də Mil yaxınlığındakı 2-ci postda xüsusi tapşırığı yerinə yetirib geri dönərkən düşmən tərəfindən atılan mina partlayışı ilə ağır yaralanır, xəstəxanaya çatdırılsa da həyata qaytarmaq mümkün olmur, əbədiyyətə qovuşur.

# MƏMMƏDOV MÜXTƏR İSA OĞLU



Müxtər 1973-cü ildə Şərurun Qarahəsənli kəndində anadan olub. 1990-cı ildə həmin rayondakı Keşdaz kənd orta məktəbini bitirib.

1991-ci ilin dekabr ayında hərbi xidmətə çağırılıb. Bir neçə ay Naxçıvanda qulluq edəndən sonra Milli Ordunun "İdman rotası"na daxil edilib və 1992-ci ilin aprel ayında həmin rotanın tərkibində Sədərək bölgəsinə göndərilib. Bir ay sonra mayın 18-də ermənilər Sədərək üzərinə vəhşicəsinə hücum edərkən Mil dağında düşmən qarşısında sinəsini sipər edib şəhidlik zirvəsinə ucalanlardan biri də Müxtər Məmmədov olub.

# QULİYEV QULAM ƏLİ OĞLU



Qulam 1973-cü il sentyabr ayının 15-də Naxçıvan rayonunun Cəhri kəndində anadan olub. 1980-1990-cı illərdə Q. Əkbərov adına Cəhri kənd orta məktəbində oxumuşdur. 1990-cı ildə Naxçıvan Politexnik Texnikumunun avtonəqliyyat fakültəsinə daxil olmuş, həmin məktəbin son kursundan 1992-ci il fevralın 5-də hərbi xidmətə getmişdir. Hərbi xidmətə çağırılandan az sonra Sədərək bölgəsinə göndərilmişdir. Qulam Quliyev Sədərəyin müdafiəsi zamanı bir neçə döyüşlərdə iştirak etmiş, Qarağac döyüşündə xüsusi fərqlənmişdir.

O, 1992-ci ilin avqust ayında Mil dağı uğrunda gedən döyüşlərin birində snayper gülləsi ilə başından ağır yaralanmış, bir müddət müalicə olunsa da həyata qayıtması mümkün olmamış, sentyabrın 13-də əbədiyyətə qovuşmuşdur.



# MİRZƏYEV FƏRHAD SƏYYAD OĞLU

Fərhad 1973-cü ildə Şərur rayonunun Püsyan kəndində anadan olub. 1992-ci ildə Naxçıvan Muxtar Respublikasının Milli Ordusunun tərkibində Sədərəkdə xidmət edirdi.

May ayının 18-də azğın ermənilərin Sədərək üzərinə üç İstiqamətdən – Mil dağı, Ucubiz dağı və Qarağac istiqamətlərindən ağır zirehli texnika ilə hücumu olanda Fərhad öz döyüş dostları ilə Ucubiz dağındakı postda idilər. Sədərək üçün çox mühüm strateji əhəmiyyəti olan bu dağın düşmənə verilməsinin nəticələrini görən döyüşçülər öz qanları ilə suvardılar Ucubiz dağını. Ucubiz dağının zirvəsində şəhidlik zirvəsinə ucalanlardan biri də Fərhad Mirzəyev oldu. O, Naxçıvanda "Şəhidlər xiyabanı"nda dəfn olunmuşdur. (Baş daşında təvəllüdü 1972-ci il yazılmışdır.)

6. ŞİRVANNƏŞR 13 (60 ), 1998.



# MƏMMƏDOV FAİQ YAQUB OĞLU

Faiq 1973-cü ildə Şərur rayonunun Çərçiboğan kəndində anadan olub. Kənddə orta məktəbi bitirəndən sonra bir il kolxozda fəhlə işləyib, 1992-ci ilin aprel ayında hərbi xidmətə çağırılıb, əvvəlcə Babək rayonunun Buzqov kəndində qulluq edib, may ayının 12-də Sədərək kəndinə göndərilib, bir həftə sonra isə Mil dağı uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla şəhid olub. Faiq Məmmədov Naxçıvan şəhərindəki "Şəhidlər xiyabanı"nda dəfn olunmuşdur.

# ƏSƏDULLAYEV KAMAL FƏTULLA OĞLU



Kamal 29 mart 1974-cü ildə Şərur rayonunun Alışar kəndində müəllim ailəsində anadan olub. Orta təhsilini Alışar və Qorçulu kəndində alıb. 1990-1993-cü illərdə Bakı şəhərində Dəmir Yol Texnikumunu bitirmişdir.

1993-cü ilin sonlarında hərbi xidmətə gedən K. Əsədullayev Culfa və Ordubad hərbi hissələrində qulluq edəndən sonra cəbhə xəttinə – Sədərək bölgəsinə göndərilmişdir.

1994-cü il may ayının 26-dan 27-nə keçən gecə azğın ermənilər gözlənilmədən Qurdbaba yüksəkliyinə hücum edərkən ordakı 8 əsgərdən ikisi yaralanıb döyüş mövqeyini tərk edir, qalan 6 nəfər isə qəhrəmancasına vuruşub düşmənə ağır itkilər verir. Həmin səngərdə son damla qanına qədər vuruşub, düşmən əlinə diri keçməmək üçün axırıncı gülləsini öz sinəsinə çaxanlardan biri də Kamal olur. Beləcə uca dağın zirvəsində şəhidlik zirvəsinə ucalır Kamal... Onun meyidi düşmən əlinə keçsə də aparılan səylər nəticəsində geri alınır, o, doğma torpaqda dəfn olunub əbədiyyətə qovuşur.



# CƏFƏROV ADİL ALLAHVERDİ OĞLU

Adil 1972-ci il iyul ayının 2-də Sədərək kəndində anadan olub. 1979-cu ildə Sədərək kənd 2 N-li orta məktəbinə daxil olub. 8-ci sinfi bitirəndən sonra 165 N-li texniki-peşə məktəbini bitirmişdir.

1990-1992-ci illərdə ermənilərin Sədərək üzərinə hücumu zamanı könüllü özünümüdafiə dəstələrinin tərkibində kəndin müdafiəsində iştirak etmişdir.

1993-cü ilin avqust ayında hərbi xidmətə çağırılmış, əvvəlcə 754 N-li hərbi hissənin tərkibində Culfa rayonunda xidmət etmiş, sonralar Sədərək bölgəsinə göndərilmişdir. 1994-cü il iyun ayının 8-də Mil dağı ətrafında hərbi tapşırığı yerinə yetirərkən şəhid olmuşdur.



## HƏSƏNOV MÜXTƏR HƏSƏN OĞLU

Müxtər 1975-ci ildə martın 3-də Şərur rayonunun Qıvraq kəndində anadan olub. 1991-ci ildə Qıvraq kənd 1 N-li orta məktəbini, sonra isə Bakıdakı 14 N-li texniki-peşə məktəbini bitirib. 1992-ci il aprel ayının 9-dan hərbi xidmətdə idi. Müxtər Həsənov 1994-cü il may ayının 26-dan 27-nə keçən gecə Günnüt kəndinin yaxınlığındakı Qurdbaba dağı istiqamətindəki postda ikən yüzlərlə erməni yaraqlısı qəflətən həmin posta hücum etdilər. Müxtərlə birlikdə 6 nəfər cəsur döyüşçü səhər saat 4 radələrinə qədər qəhrəmanlıqla vuruşub düşmənin qarşısını saxlasalar da geri çəkilmədilər, son damla qanlarına qədər vuruşub şəhidlik zirvəsinə yüksəldilər. Düşmən əlinə diri keçməmək üçün Müxtər son gülləsini öz sinəsinə tuşladı. Düşmən onun meyidini aparsa da bir neçə saatdan sonra geri alındı, doğma torpağında dəfn olundu.



# HEYDƏROV HÜSEYN İSGƏNDƏR OĞLU

Hüseyn 1975-ci ildə mart ayının 29-da Sədərək kəndində anadan olmuşdur. Sədərək kənd orta məktəbini bitirmişdir. 1993-cü il iyun ayının 23-də hərbi xidmətə gedib. Əvvəlcə Culfada, sonra Ordubad rayonunun Kilid kəndindəki sərhəd hərbi hissələrində xidmət edib.

1993-cü ilin sonlarında Qarabağ bölgəsinə əsgər göndəriləcəyini biləndə könüllü ərizə verib Qarabağa gedir. Kəşfiyyat rotasına daxil edilir. Bir neçə mühüm tapşırıqları yerinə yetirir. Murovdağ ətrafında gedən döyüşlərin iştirakçısı olur. Murovdağda qar uçqunu nəticəsində həlak olmuşdur.

1994-cü il may ayının 13-də doğulduğu Sədərək kəndinin "Şəhidlər xiyabanın"nda dəfn olunmuşdur.

# SULTANOV NAZİM FƏRMAN OĞLU



Nazim 10 oktyabr 1975-ci ildə Sədərək kəndində anadan olub. 1982-ci ildə Sədərək kənd 1 N-li orta məktəbin 1-ci sinfinə daxil olub. 8-ci sinfi bitirəndən sonra 162 N-li texniki-peşə məktəbində oxuyub. 1990-1992-ci illərdə Sədərək kəndininin ermənilərdən müdafiə olunmasında yerli özünümüdafiə dəstələrinin tərkibində bir neçə döyüşün iştirakçısı olub. 1993-cü il dekabrın 1-də hərbi xidmətə gedib. Culfadakı 456 saylı hərbi hissədə xidmət edib.

1995-ci il noyabr ayının 10-da Ordubad rayonu ərazisindəki Soyuq postunda əbədiyyətə qovuşub. Doğulduğu Sədərək kəndinin "Şəhidlər xiyabanı"nda dəfn olunub.

## RZAYEV SURXAY İSA OĞLU



Surxay 1973-cü il avqust ayının 4-də Ordubad rayonunun Düylün kəndində anadan olub. 1980-1990-cı illərdə kənd orta məktəbində oxuyub. Orta məktəbi bitirəndən sonra bir il kənddə N. Nərimanov adına sovxozda fəhlə işləyib. 1991-ci il dekabrın 20-də hərbi xidmətə gedib. Naxçıvan şəhərində Ordubad rayonundakı Soyuq zirvəsində bir müddət qulluq edəndən sonra Sədərək bölgəsinə göndərilib. Bir müddət 754 N-li hərbi hissənin komandiri Elşad Nağıyevin köməkçisi olub. Atəşkəs rejimi olmasına baxmayaraq xain ermənilər tərəfindən bir neçə dəfə törədilən döyüş məqamlarının iştirakçısı olub. 1994-cü il may ayının 19-da hərbi tapşırığı yerinə yetirərkən Mil dağı istiqamətində snayper atəşi ilə qətlə yetirilib.



# İMANOV ƏBÜLFƏZ BƏBİR OĞLU

Əbülfəz 1973-cü il dekabr ayının 20-də Şərur rayonunun Qarabağlar kəndində anadan olub. 1981-1991-ci illərdə Qarabağlar kəndindəki 2 N-li orta məktəbdə təhsil alıb. 1992-ci il iyun ayının 17-də hərbi xidmətə çağırılıb, az sonra Milli Ordunun tərkibində Sədərək bölgəsinə göndərilib.

1992-ci il sentyabr ayının 18-də Sədərək uğrunda gedən döyüşlərdə iştirak edib, elə həmin gün də şəhid olub.

# QASIMOV İLYAZ SABİR OĞLU



İlyaz 1974-cü il yanvarın 2-də Şərur rayonunun Qarabağlar kəndində anadan olub. 1991-ci ildən Sədərək bölgəsindəki 917 N-li hərbi hissədə qulluq edirdi. 1993-cü ilin yayında Ermənistanla sərhəd olan postun yaxınlığında bir nəfər erməni əsir tutub hərbi hissəyə gətirir, 705 N-li hərbi hissəyə təhvil verir.

1993-cü ilin dekabr ayında erməni ordusunda tağım komandiri işləyən İqnatov familiyalı rusu yaralayıb əsir götürərək hərbi hissəyə gətirmiş, 500 manat pulla mükafatlandırılmışdı.

1994-cü il aprel ayının 17-də kəşfiyyata gedərkən düşmən tərəfindən mühasirəyə alınır, mühasirədən çıxmağın mümkün olmadığını görən İlyaz düşmənə xeyli itki verəndən sonra özü də qəhrəmanlıqla şəhid olur. Meyidi bir neçə saat düşmən əhatəsində qalsa da bölük komandiri Musa Hətəmovun hazırladığı əməliyyat nəticəsində onun meyidi döyüş mövqeyindən çıxarılır və doğulduğu Qarabağlar kəndində dəfn edilir.

## ƏSGƏROV CANPOLAD AĞAVERDİ (AĞOŞ) OĞLU



Canpolad 1973-cü ildə Naxçıvan şəhərində anadan olub. Orta məktəbi bitirəndən sonra 1991-ci ilin sonlarında hərbi xidmətə gedib. Bir müddət Naxçıvan şəhərində qulluq edib. Sonralar Sədərəkdə vəziyyət gərginləşərkən Milli Ordunun tərkibində Sədərək bölgəsinə göndərilib. 1992-ci il mayın 18-də ermənilərin Sədərək üzərinə ağır zirehli texnika ilə hücumu zamanı Sədərəyin müdafiəsində iştirak edib.

May və iyun aylarında Qarağac, Əjdəkan, Cin təndiri, Beşbarmaq postları tərəfdən Sədərək üzərinə olan düşmən hücumlarının qarşısının alınmasında fəal döyüşçü kimi tanınıb.

1992-ci ilin iyul ayının 21-də Qarağac uğrunda gedən döyüşlərdə şəhid olub. Qəbri Naxçıvan şəhərindəki "Şəhidlər xiyabanı"ndadır.

# MAHMUDOV ƏBDÜL QƏHRƏMAN OĞLU



Əbdül 1973-cü ildə Şərur rayonunun Cəlilkənd kəndində anadan olub. Kənddə orta məktəbi bitirəndən sonra hərbi xidmətə gedib. Milli Ordunun tərkibində Sədərək bölgəsinə göndərilib. 1992-ci il ərzində Sədərək uğrunda gedən döyüşlərin bir neçəsində Sədərəyin müdafiəsində iştirak edib. Sentyabrın 18-də Mil dağının geri alınması uğrunda gedən döyüşlərin ən fəal iştirakçılarından olub. Həmin gün 4 nəfər yaralı döyüş dostunun odlu nöqtələrdən çıxarılmasında əsl fədakarlıq göstərsə də növbəti döyüş əməliyyatından sağ qayıda bilməyib... Həmin döyüşdə də şəhidlik zirvəsinə ucalıb.

19 yaşlı şəhid Əbdül Mahmudov bir neçə ay idi ki, ailə qurumuşdu.

# SƏFƏROV SABİT VAQİF OĞLU



Sabit 1973-cü ildə Şərurun Qarabağlar kəndində anadan olub. Kənddəki 1 N-li orta məktəbi bitirib. 15 iyun 1992-ci il tarixdən 19 sentyabr 1992-ci ilədək 48401 N-li hərbi hissədə xidmətdə olub. 19 sentyabr 1992-ci ildə gündüz saat 15 radələrində öz komandirinin yaralandığını eşidən S. Səfərov bir anda əl qumbarası ilə qarşıdakı düşmən səngərini darmadağın etmişdir. Düşmən səngərini dağıdan S. Səfərov düşmənin snayper gülləsinin qəfil atəşi ilə qətlə yetirilmişdir. Həyatının son anında əsl qəhrəmanlıq nümunəsi göstərib qəhrəmancasına şəhid olan tağım komandirinin müavini Sabit Səfərovun qəhrəmanlığı haqqında hərbi hissə komandirindən bir sıra məktublar göndərilmiş, şəhidin adı vaxtilə oxuduğu Qarabağlar kənd 1 N-li orta məktəbində əbədiləşdirilmişdir.

# HƏSƏNƏLİYEV ASƏF ƏLƏKBƏR OĞLU



Asəf 1973-cü ildə Ordubad şəhərində anadan olub. 1980-1990-cı illərdə M. Füzuli adına Ordubad şəhər internat məktəbində orta təhsil alıb. Orta təhsilini başa vurandan bir il sonra hərbi xidmətə çağırılıb. Milli Ordunun tərkibində Sədərək bölgəsinə göndərilib.

1992-ci il mayın əvvəllərində Sədərək üzərinə erməni hücumlarının qarşısının alınmasında xeyli şücaətlər göstərib. Belə döyüşlərin birində 1992-ci il may ayının 6-da ağır yaralanıb, əvvəlcə Naxçıvan Respublika xəstəxanasına, ordan da Bakıya təcili göndərilsə də həyatını xilas etmək mümkün olmayıb, üç gün sonra həyata əbədi "əlvida" deyib...

# BABAYEV RƏŞAD ABBAS OĞLU



Rəşad 1974-cü ilin fevral ayında Babək rayonunun Sirab kəndində anadan olub.

1981-ci ildə Sirab kənd orta məktəbinin birinci sinfinə daxil olub, 9-cu sinfi bitirəndən sonra ailə vəziyyəti ilə əlaqədar sovxozda fəhlə işləyə-işləyə orta təhsilini davam etdirmişdir.

1992-ci ildə hərbi xidmətə gedən Rəşad Babayev bir müddət Culfa hərbi hissəsində qulluq edəndən sonra 1994-cü ilin ortalarında Sədərək bölgəsinə göndərilmişdir. Sədərəkdə bir sıra hərbi əməliyyatlarda iştirak etmiş, erməni təcavüzünün dəf edilməsinin iştirakçısı olmuşdur.

1995-ci il aprel ayının 24-də Sədərək bölgəsində hərbi tapşırığı yerinə yetirərkən mina partlayışı nəticəsində həlak olmuş, doğma torpağında dəfn edilib əbədiyyətə qovuşmuşdur.

# MƏMMƏDOV ƏHMƏD HƏSƏNQULU OĞLU



Əhməd Sədərək kəndində anadan olmuşdu. Uzun illər Sədərək üzümçülük sovxozunda briqadir vəzifəsində işləmişdi.

1988-1990-cı illərdə Sədərəkdə yaranmış yerli özünümüdafiə dəstələri gecələr dağlarda keşik çəkəndə, kəndin ağsaqqalları səngərə gedəndə, dəfələrlə o da yaşı 60-ı haqlamasına baxmayaraq Əjdəkan dağına qalxmış, ordakı döyüşçülərə ürək-dirək vermişdi.

Sədərək rayon polis şöbəsində işləyən böyük oğlu Səfər 1992-ci ildə Ucubiz dağında snayper gülləsindən yaralanıb 40 günə yaxın Şərur rayon xəstəxanasında yatdığı müddətdə də o, dəfələrlə döyüş səngərində olmuş, bir dəfə də olsun düşmən gülləsindən qorxub çəkinməmişdi...

Düşməndən qorunan Ə. Məmmədov özümüzünkülərdən qoruna bilmədi...

1992-ci il oktyabr ayının 4-də kəndin qoyun növbəsinə gedərkən Əjdəkan dağının lap kəndə yaxın ətəklərində azğın Rəhim Qazıyev ordusunun bir neçə əsgəri ondan bir qoyun istədilər, sonra da avtomat silahla qətlə yetirdilər...

Beləcə sona çatdı 11 uşaq atası Əhməd Məmmədovun həyatı.

## QAYBALIYEV BƏXTİYAR NƏSİB OĞLU



Bəxtiyar 1976-cı ildə Naxçıvan Muxtar Respublikasının Sədərək kəndində anadan olub.

1984-1994-cü illərdə kənddəki orta məktəbdə oxuyub. Hələ orta məktəbdə oxuduğu illərdə xain ermənilərin Sədərək üzərinə bir neçə dəfə hücumlarını öz gözləri ilə görən və bunun şahidi olan Bəxtiyar Qaybalıyev 1992-ci ilin may ayında və sonrakı aylarda Sədərək uğrunda gedən döyüşlərdə yaxından iştirak etmiş, hərbi xidmət yaşı çatmasa da doğulduğu torpağın müdafiə olunmasında fəallıq göstərmişdir. Bəxtiyar Qaybalıyev orta məktəbi bitirəndən sonra hərbi xidmətə getmiş, 3 ildən artıq Naxçıvanın Buzqov döyüş bölgəsində hərbi xidmətdə olmuşdur.

Hərbi xidmətini başa çatdırıb doğma ocağa dönmək ərəfəsində – 1997-ci il oktyabr ayının 22-də hərbi tapşırıq zamanı xidməti vəzifəsini yerinə yetirərkən faciəli surətdə həlak olmuşdur.

21 yaşlı Bəxtiyar Qaybalıyev doğulduğu Sədərək kəndinin "Şəhidlər xiyabanı"nda dəfn edilmişdir.

---

7. ŞİRVANNƏŞR, 13(60), 1998.

# ƏHMƏDOV KƏRİM YƏHYA OĞLU



Sədərək üzərinə xain ermənilərin 1990-1993-cü illərdə olan hücumları zamanı təkcə döyüş səngərlərindəki döyüşçülər deyil,kənddə yaşayan dinc əhalidən də faciələrlə üzləşənlər, qəfil güllələrin, qəfil atəşlərin qurbanı olub həyata “əlvida” deyənlər çox oldu.

Sədərəkdə böyüyüb boya-başa çatan, hələ 1988-1989-cu illərdən Sədərək sərhədlərində ermənilərn törətdikləri vəhşiliklərin şahidi olan Kərim Əhmədov da belə bir qəfil ölümün qurbanı oldu.

Kənddə yaradılmış özünümüdafiə dəstələrinin tərkibində dəfələrlə döyüş səngərlərində olub, Qırmızılar, Qaraburun, Ucubiz uğrunda döyüşlərin iştirakçısı olmuş Kərim Yəhya oğlu Əhmədov 1992-ci il oktyabr ayının 29-da erməni qəsbkarları tərəfindən Sədərək kəndinin mərkəzinə atılan top atəşinin mərmisindən ağır xəsarət alaraq həyata “əlvida” dedi.

## QƏDİMOV VƏLİ RƏHİM OĞLU



Vəli 1959-cu il mart ayının 15-də Sədərək kəndində anadan olub. Kənd məktəbinin 8-ci sinfini bitirib. Sumqayıt şəhər texniki-peşə məktəbinə daxil olub. Həmin məktəbi bitirəndən sonra 1978-ci ilə qədər elektrik qaynaqçısı işləyib. 1978-ci ildə Sumqayıt hərbi komissarlığı tərəfindən hərbi xidmətə göndərilib. 1978-80-cı illərdə hərbi xidmətdə olub. Hərbi xidmətini başa vurduqdan sonra doğulduğu Sədərək kəndinə qayıdıb. Kənddə qaynaqçı işləyib. 1990-cı ildən etibarən kənddəki könüllü dəstələrinin tərkibində erməni işğalçılarına qarşı döyüşlərdə iştirak edib. 1992-ci ilin mart ayının 2-də sağ döşündən yaralanıb. Həmin yaradan sonra bir qədər müalicə olunsa da sağalmayıb, az sonra vəfat edib. Ailəli, 2 uşaq atası idi...

# QASIMOV ƏHMƏD SADIQ OĞLU



Əhməd Sədərək kəndində anadan olub. Sədərək kənd 2 N-li orta məktəbini bitirib. Orta məktəbin son siniflərində oxuduğu illər Sədərəyin erməni təcavüzünə məruz qaldığı ən ağır, dəhşətli vaxtlarına düşdüyü üçün bütün yaşıdları kimi o da orta məktəbi qurtaranda ali məktəbə gedib qəbul imtahanı vermək əvəzinə, kəndin könüllülərinə qoşulub, doğulduğu torpağın müdafiəsi yolunda qeyrət, cəsarət imtahanı verəsi olub. Evləri Sədərəyin Ermənistanla sərhəd istiqamətində, atəş nöqtəsində olduğundan çox döyüşlərin, çox ağır günlərin şahidi və iştirakçısı olub. Belə ağır günlərin birində 1993-cü il oktyabr ayının 3-də yaralanıb, bir aya yaxın Bakı şəhərində Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mərkəzi Hərbi qospitalında müalicə olunsa da, həyata qaytarmaq mümkün olmayıb onu... Doğulduğu Sədərək kəndində dəfn olunub.

## HEYDƏROV YUSİF QAFAR OĞLU



Yusif 1932-ci ildə Sədərək kəndində anadan olub. 1940-cı ildə Sədərək kənd məktəbinin 1-ci sinfinə daxil olub, müharibə illərində natamam orta təhsil alıb. 1950-1954-cü illərdə Sovet ordusunda hərbi xidmətdə olub.

1990-1992-ci illərdə Sədərək erməni hücumuna məruz qalarkən kəndin könüllülərinə qoşulub, bir neçə dəfə döyüş səngərlərində olub, döyüşçülərə ürək-dirək verənlərdən biri də o olub.

1992-ci ilin may ayında ermənilərin Sədərək üzərinə güclü hücumu zamanı sol çiyin nahiyəsindən snayper yarası alıb, həmin yaradan 1992-ci il noyabrın 22-də həyata "əlvida" deyib. İki oğul, üç qız atası idi.

# HƏSƏNOV CƏFƏR ƏLİ OĞLU



Cəfər 1941-ci ildə Sədərək kəndində anadan olub. 1987-1988-ci illərdən Sədərək əhalisi üçün Ermənistan tərəfdən narahat günlər başlandığı üçün dəliqanlı kənd cavanları ilə birlikdə kəndin yaşı əllini, altmışı haqlayan kişiləri də aylarla, gecələr adi quş tüfəngləri olmasa da əliyalın dağlarda qalır, kəndin namusunu, torpağın müqəddəsliyini elə beləcə, quruca dəyanətləri, qeyrətləri ilə qoruyurdular...

Cəfər Həsənovun ürəyi 1990-cı ilin ağır günlərində adi gecələrin birində, adi bir qayanın dalında, güllәsiz-filansız dayandı... Altıca da övladı qaldı ömrü boyu fəhlə işləyən Cəfər Həsənovun: Oqtay, Zülfüqar, Vüqar, Qələndər, Balaxanım, Aygün...

## MUSAYEV FİRUDİN QULU OĞLU



Firudin 1957-ci il dekabrın 7-də Sədərək kəndində anadan olub. 1964-1974-cü illərdə Sədərək kənd orta məktəbində oxuyub. 1976-78-ci illərdə Monqolustan Xalq Respublikasında hərbi xidmətdə olub. Sədərək üzümçülük sovxozunda fəhlə işləyirdi. Sədərək kəndinin başı üstünü erməni təhlükəsi alanda Firudin də kəndin könüllü dəstələrinin tərkibində Əjdəkan və Qarağac postlarına gecələr növbəyə gedirdi. Həmin günün axşamı döyüş səngərindən sağ-salamat qayıtsa da ölüm onu öz yatağında haqladı.

1992-ci il mayın 18-də səhər saat 5 radələrində vəhşi ermənilərin qəflətən Sədərək üzərinə yağdırdıqları top mərmilərindən biri də Firudingilin evlərinin üstünə düşdü. O, ağır yaralandı. May ayının 21-də isə Naxçıvan Respublika xəstəxanasında həyata "əlvida" dedi... Həmin günlərdə Sədərəkdə döyüşlər ara vermədiyi üçün F. Musayev Naxçıvan şəhərindəki "Şəhidlər xiyabanı"nda dəfn olundu. O, evli idi.

# QASIMOV QADİR QASIM OĞLU



Qadir 1951-ci ildə Sədərək kəndində anadan olub. Kənddə orta təhsil alandan sonra 1968-1969-cu illərdə Sumqayıt şəhərindəki texniki-peşə məktəbində oxuyub, quraşdırıcı çilingər ixtisasına yiyələnib. 1971-1973-cü illərdə Sovet Ordusu sıralarında hərbi xidmətdə olub. Sonrakı illərdə Sumqayıtda çilingər, Sədərək sovxozunda fəhlə, İliç (Şərur) rayon suvarma sistemləri idarəsində elektrik mantyoru, 117 N-li MSD-də fəhlə və s. İşlərdə işləmişdir.

Qadir Qasımov 2-ci dərəcəli əlil olmasına baxmayaraq Sədərəyə erməni təcavüzünün başlandığı ilk illərdən könüllü özünümüdafiə dəstələrinin tərkibində doğma torpağının müdafiəsində iştirak etmişdir.

1992-ci il oktyabrın 29-da erməni qəsbkarları Sədərək kəndini güclü top atəşinə tutarkən Qadir Qasımov kəndin mərkəzinə düşən top zərbəsi ilə həlak olmuşdur. Ailəli, üç uşaq atası idi.

# MƏMMƏDOVA CEYRAN MİRƏLİ QIZI



Ceyran Sədərək kəndində anadan olub. On bir uşaq anası "Qəhrəman ana" idi. 1992-ci il mayın 18-də səhərin alatoranında Sədərək üzərinə ermənilərin ağır zirehli texnika ilə güclü hücumu oldu. Kişilər od-alov altında dağlara – düşmən qabağına çıxanda qadınlar, qocalar və uşaqlar müvəqqəti olaraq kənddən çıxarılmağa məcbur oldu. Məhəllədən qadınları və körpələri aparan yük maşını kənddən azca uzaqlaşmamışdı ki, kəndin üstündən sovuşub dəhnə tərəflərə dolu kimi yağan düşmən mərmilərindən biri də Ceyran Məmmədovanın getdiyi maşının benzin çəninə dəyir. Maşın alışıb yananda körpələrin və qadınların bir neçəsini xilas edirlər, yaralananlar da olur. On bir uşaq anası Ceyran Məmmədova isə həmin qanlı faciənin qurbanı olur... 18 may 1992-ci il tarixdə Sədərək şəhidlərinin sırasına bir də ağ saçlı ananın – Ceyran Məmmədovanın adı əlavə olunur.

## USUBOVA RUHİYYƏ ABDULLA QIZI



Ruhiyyə 1975-ci ildə Sədərək kəndində anadan olub. Kənddəki 2 N-li məktəbin səkkizinci sinfini bitirəndən sonra texniki-peşə məktəbinə daxil olmuşdur.

Sədərəyin üstünü qara buludlar alan gündən, kənd ağır top atəşlərinə məruz qalan günlərdə kənddən qadınlar çıxarılanda da çox vaxt Ruhiyyə kənddə qalar, yaşı əllini haqlayan atası Abdullanın Mil dağından döyüşdən qayıtmasını gözləyər, onun bir tikə çörəyini, bir stəkan çayını verməyincə rahatlanmazdı. Ruhiyyənin bu xasiyyətini və sözündən dönmədiyini bilən ailə üzvləri daha qadınların kənddən çıxaxarıldığı günlərdə ona da "get" deməyi artıq bilərdilər...

Elə buna görə də amansız ölüm lap evlərinin yanında tuş oldu bu qorxmaz qıza... 1992-ci il sentyabrın 18-də həyətlərinin 5-10 metrliyinə düşən bir top mərmisinin zərbəsi ilə həyata "əlvida" dedi o...

## SÜLEYMANOVA SƏMƏRQƏND İBRAHİM QIZI



Səmərqənd Sədərək kəndində anadan olub. Kənddə 2 N-li orta məktəbi bitirib. 17 yaşı var idi.

1990-cı ilin 18 yanvarından başlayaraq ermənilərin Sədərək üzərinə tez-tez hücumları olur, kənd top atəşinə tutulurdu. Bu səslərə kənd əhalisinin elə qulağı qızışmışdı ki, təkcə top atəşi olanda qadınlar, qocalar və uşaqlar kənddən çıxarılır, qalan vaxtlarda isə Sədərək elə güllə yağışı altında yaşayır, dağlardan atılan güllələr hərdən kəndin dağlara səmt olan həyətlərinə də çatırdı.

Səmərqənd Süleymanova da 1992-ci il iyulun 7-də Əjdəkan dağına yaxın olan həyətlərində belə güllələrdən birinin qurbanı oldu.

## NƏSİROV ELVİN TOFİQ OĞLU



Elvin 1984-cü il fevral ayının 11-də Sədərək kəndində anadan olub. 1990-cı il yanvar ayının 19-da səhər-səhər Ermənistan tərəfdən Sədərək kəndinə yağan ilk top mərmilərindən biri elə həyət darvazasının yanındaca qanına qəltan eyləyib 6 yaşlı Elvini. Həmin vaxt bu günahsız körpənin atası Tofiq Nəsirov da kəndin qeyrətli başıpapaqlıları ilə birlikdə Sədərəyə dolmaqda olan vəhşi ermənilərin hücumunun qarşısını saxlamışdılar. Oğlunun ölüm xəbərini eşidən ata, namusun, qeyrətin tapdalanmasını oğul itkisindən də dəhşətli bilən ata o vaxtlar Sədərəyin ən odlu nöqtəsi olan Qırmızılar dağındakı səngərdən enmək istəmirsə də döyüş dostları onu güclə səngərdən endirirlər. O, 2-3 saat əvvəl səhər yuxusunda mışıl-mışıl yatan cüt oğlunun Elvinin və Malikin dəfnində iştirak edir.

# NƏSİROV MALİK TOFİQ OĞLU



Malik 1986-cı il fevral ayının 14-də Sədərək kəndində anadan olub.

1990-cı il yanvarın 19-da ermənilərin Sədərək kəndinə atdıqları top mərmilərindən biri elə həyətlərindəcə ömrünü sona çatdırıb bu 4 yaşlı körpənin... Həmin gün axşama qədər Sədərək atəş altında olduğundan gecə qaranlığında dəfn ediblər Elvinlə Malik qardaşlarını... Həm də kənddən qadınlar çıxarıldığı üçün təkcə kişilər göz yaşı axıdıb bu körpələrin qəbrləri üstündə...

Ataları Tofiqin isə elə qəbiristanlıqda çox qısa bir çıxışı olub:

"Mənim şəhid olan cüt oğlumun ölümünə görə kim mənə təsəlli vermək istəyirsə silahını götürüb dalımca Qırmızılar dağına gəlsin, şəhidlərimizin ruhunu biz orda – ermənilərin qabağını saxlamaqla şad edə bilərik..."

... Şərur şəhərindəki uşaq bağçası indi "Elvin – Malik bağçası" adlanır.

# SULTANOV KAMİL HÜSEYN OĞLU



Kamil 1976-cı ildə Sədərək kəndində anadan olub. Sədərək kənd 2 N-li orta məktəbinin şagirdi olub.

Kəndin üstünü qara buludlar alanda, kəndin qeyrətli oğulları dağlardakı səngərlərdə vuruşanda onlara su, çörək, siqaret daşıyan kəndlə səngərlərin bir növ "rabitə vasitəsi" kəndin 10-15 yaşlı cəsur oğlan uşaqıarı idi. Kamil Sultanov da bir neçə dəfə qara tüstü-duman içində Ucubizə, Qaraburuna getsə də, o yollardan sağ-salamat qayıda bilsə də evlərinə yaxın olan Ağ oğlan postu istiqamətində açılan düşmən mərmisindən xilas ola bilmədi. 1992-ci il sentyabrın 14-də açılan mərmi onun həyatını yarımçıq qoydu.

## SƏFƏRZADƏ VİDADİ VAQİF OĞLU



Vidadi Sədərəkdə müəllim ailəsində anadan olub. Sədərək kənd 1 N-li orta məktəbinin səkkizinci sinif şagirdi idi. Sədərəyin elə ağır günləri idi ki, qadınlar, qocalar müvəqqəti olaraq kənddən çıxarılmışdı, kişilər isə düşmən qabağında tüstü - dumana bürünmüş səngərlərdə ölüm-dirim savaşında idilər. Belə bir vaxtda kəndin 10-12 yaşlı uşaqları da evdə rahatlıq tapa bilmirlər, həm səngərdəki vəziyyəti öyrənmək üçün, həm də Əjdəkan, Ucubiz, Cin təndiri, Qırmızılar, Qaraburun, Mil səngərlərindəki döyüşçülərə su, çörək, siqaret daşımaq üçün gecə-gündüz qarışqa kimi dağlara dırmaşırdılar.

Vidadi də bu uşaqlardan biri kimi Ucubiz dağına qalxdı və 1992-ci il iyun ayının 11-də qəfil bir gülləyə tuş gəldi. 15 günə yaxın Bakıda müalicə etsələr də həyata qaytara bilmədilər onu... İyulun 11-də Sədərəkdə – doğma kənddə torpağa tapşırdılar onu.

## İBRAHİMOV ORXAN YUSİF OĞLU



Orxan 1982-ci ildə Sədərəkdə anadan olub. 1989-cu ildə kənddəki 2 N-li orta məktəbin birinci sinfinə daxil olub. 3-cü sinfi bitirəndən sonra təhsilini Ordubadda davam etdirirdi. 7-ci sinfi bitirib Sədərək kəndinə gəlmişdi.

1996-cı il may ayının 26-da Sədərək kəndinin kənarında mina partlayışı nəticəsində həlak olub.

# HƏSƏNOV BAYRAM HƏSƏN OĞLU



Bayram 1985-ci il aprel ayının 2-də Sədərək kəndində anadan olub. Sonralar ailə vəziyyəti ilə əlaqədar Şərur rayonunun Zeyvə - Düdəngə kəndində yaşayırdı. Sədərəkdəki qohumlarının evinə qonaq gələrkən 1996-cı il may ayının 26-da Sədərək kəndinin kənarında mina partlayışı nəticəsində həlak olub.

---

8. ŞİRVANNƏŞR, 13(60), 1998.

## ADNAYEV ELŞAD SƏXAVƏT OĞLU



Elşad Sədərək kəndində doğulmuşdu. Beşaylıq körpə idi. Həyatın nə acısını görmüşdü, nə də şirinini...

Kəndin ağır günlərinin birində, ermənilərin kəndə od-alov tökdüyü günlərin birində yüzlərlə gözüyaşlı analardan biri kimi onu da anası qucağında aparırdı ki, küçədəki avtobusa çatıb kəndə yağan od-alovdan xilas edə bilsin. Ancaq xilas edə bilmədi ana öz körpəsini... Evin ortasına düşən top mərmisinin qəlpəsindən bir neçə nəfər yaralandı, həyata gözlərini əbədi yuman isə adi bir fotoşəkli də qalmayan beşaylıq körpə – Elşad oldu.

## ŞƏHİDLƏRİN ANALARINA, BACILARINA, ƏZİZLƏRİNƏ – GÖZ YAŞI AXIDANLARINA TƏSƏLLİ MƏKTUBU

Uçsun fələyin bacası,
Lap çoxdur dərdi, acısı...
Sənsən o mərdin bacısı,
Ağlama, bacı, ağlama...

Bulud gedib, göy ayazdı,
Demirəm ki, dərdin azdı...
Bir yazıydı fələk yazdı,
Ağlama ,bacı, ağlama...

Dağlar çəkməz bu dağını,
Budayıblar budağını,
Qəmlə güldürmə yağını,
Ağlama, bacı, ağlama...

Getdi daha, dönən deyil,
Dindirsən də dinən deyil,
Göylərdədir ,enən deyil,
Ağlama, bacı, ağlama...

Beş günlükdü, nədi dünya?
Qoca dünya, gidi dünya...
Qismətini yedi dünya,
Ağlama,bacı, ağlama...

Ürəyindən tök bu dərdi,
Boz torpağa ək bu dərdi,
Sən çəkmirsən tək bu dərdi,
Ağlama, bacı, ağlama...

Qara çalıb, ağ açanda,
Dərd sinənə dağ açanda,
Dağlar dözər dağ uçanda,
Ağlama,bacı, ağlama...

Ağlasan da gəlməyəcək,
Deməyəcək, gülməyəcək.
Göz yaşını silməyəcək,
Ağlama, bacı, ağlama...

Bir ulduz var odu, qaldı...
Həm işığı, odu qaldı.
İgid öldü, adı qaldı,
Ağlama, bacı, ağlama...

A ğ l a m a...
A ğ l a m a...
A ğ l a m a...

## KİTABIN İÇİNDƏKİLƏR

**Ön söz** ........ 4
*Seyidov Məhərrəm* ........ 7
*Nağıyev Elşad* ........ 8
*Zamanov Aydın* ........ 9
*Cəfərov Şakir* ........ 10
*Hüseynov Rəhim* ........ 11
*Şəfiyev Rasim* ........ 12
*Babayev İlqar* ........ 13
*Qədimov Hamlet* ........ 14
*Şiralıyev Mustafa* ........ 15
*Kazımov İlham* ........ 16
*Məmmədov İdris* ........ 17
*Seyidov İlkin* ........ 18
*Əhmədov Eldar* ........ 19
*Vəliyev Şükür* ........ 20
*Seyidov Mirhəşim* ........ 21
*Məmmədov Valid* ........ 22
*Hüseynov Etibar* ........ 23
*Əliyev Ənvər* ........ 24
*Abbasov Bahadur* ........ 25
*Muxtarov Vüqar* ........ 26
*Ağayev Nəsib* ........ 27
*Ağayev Musa* ........ 28
*Mehdiyev Lətif* ........ 29
*Əliyev Kamran* ........ 30
*Səfərzadə Vüqar* ........ 31
*Zamanov Fazil* ........ 32
*Mahmudov Vilayət* ........ 33
*Məmmədov Məmməd* ........ 34
*Əliyev Səyyad* ........ 35
*Əhmədov Etibar* ........ 36
*İsmayılov Elman* ........ 37
*Nəzərəliyev Abbasəli* ........ 38
*Əsgərov Sədi* ........ 39
*Səmədov Əli* ........ 40

Xudaverdiyev Səməd ........................................... 41
Məmmədov Nüsrət ........................................... 42
Əliyev Malik ........................................... 43
Hüseynov Şamil ........................................... 44
İbrahimov Əşrəf ........................................... 45
Orucov Mehman ........................................... 46
Həsənov Fariz ........................................... 47
Ramazanov Hidayət ........................................... 48
İsmayılov Fərmayıl ........................................... 49
Ələkbərov Vahid ........................................... 50
Hüseynov Coşgun ........................................... 51
Həsənov Müşfiq ........................................... 52
Abbasov Mehman ........................................... 53
Həziyev Namiq ........................................... 54
Məmmədov Kamran ........................................... 55
Əliyev Məhəmməd ........................................... 56
Vəliyev Rövşən ........................................... 57
Həsənov Nemət ........................................... 58
Tağıyev Azər ........................................... 59
Əliyev Elxan ........................................... 60
Əsgərov Abdulla ........................................... 61
Məmmədov Surəddin ........................................... 62
Əbülhəsənov Hidayət ........................................... 63
Seyidov Mirəyyub ........................................... 64
Səfərov Müşfiq ........................................... 65
Tağıyev Rüstəm ........................................... 66
Sarıyev Səid ........................................... 67
Hüseynov Araz ........................................... 68
Xanlarov Elmidar ........................................... 69
Məmmədov Bəhlul ........................................... 70
Ağayev Qulu ........................................... 71
Nəsibov Vüqar ........................................... 72
Zeynalov Mahmud ........................................... 73
İsmayılov Mehman ........................................... 74
Abbasov Ramiq ........................................... 75
Şahverdiyev Mübariz ........................................... 76
Əliyev Elbrus ........................................... 77
Canməmmədov Vəli ........................................... 78
Məmmədov Müxtər ........................................... 79
Quliyev Qulam ........................................... 80
Mirzəyev Fərhad ........................................... 81
Məmmədov Faiq ........................................... 82

Əsədullayev Kamal ... 83
Cəfərov Adil ... 84
Həsənov Müxtər ... 85
Heydərov Hüseyn ... 86
Sultanov Nazim ... 87
Rzayev Surxay ... 88
İmanov Əbülfəz ... 89
Qasımov İlyaz ... 90
Əsgərov Canpolad ... 91
Mahmudov Əbdül ... 92
Səfərov Sabit ... 93
Həsənəliyev Asəf ... 94
Babayev Rəşad ... 95
Məmmədov Əhməd ... 96
Qaybalıyev Bəxtiyar ... 97
Əhmədov Kərim ... 98
Qədimov Vəli ... 99
Qasımov Əhməd ... 100
Heydərov Yusif ... 101
Həsənov Cəfər ... 102
Musayev Firudin ... 103
Qasımov Qadir ... 104
Məmmədova Ceyran ... 105
Usubova Ruhiyyə ... 106
Süleymanova Səmərqənd ... 107
Nəsirov Elvin ... 108
Nəsirov Malik ... 109
Sultanov Kamil ... 110
Səfərzadə Vidadi ... 111
İbrahimov Orxan ... 112
Həsənov Bayram ... 113
Adnayev Elşad ... 114
**Şəhidlərin analarına, bacılarına, əzizlərinə – göz yaşı axıdanlarına təsəlli məktubu** ... 115

**Vaqif Cəfər oğlu Məmmədov**
Sədərək şəhidləri
(məqalələr)
Bakı – Şirvannəşr – 1998.
Korrektoru Heydərəli Nural
Çapa imzalanıb 23.05.98. Formatı 84x108 1/32.
Tirajı 1000 (100-ü qalın qabıqda).
Qiyməti sərbəst.

---

**KİTAB "ŞİRVANNƏŞR"İN MƏTBƏƏSİNDƏ ÇAP OLUNUB**



*18 may 1992-ci il faciəsindən sonra sədərəklilər 40 gün yas saxladı. Müəllifin bu şəkli də həmin günlərdə çəkilib.*

Naxçıvan Muxtar Respublikasının Sədərək kəndində anadan olub. İxtisasca tarix müəllimidir. Uzun müddət Sədərək kənd məktəbində pedaqoji işdə çalışmışdır. 1970 - ci ildən dövri mətbuatda çıxış edir.İki şer kitabının ("Yaşadacaq bu yol məni"– 1987, "Sədərək harayı"–1994 ) müəllifidir.

1983-cü il "Daşkənd təranəsi " ( Özbəkistan ) Beynəlxalq poeziya müsabiqəsinin qalibi olub.

YUNESKO xətti ilə 1994 - cü ilin sentyabrında Bağdadda keçirilən "Füzuli – 500 " Beynəlxalq festivalında iştirak edib.

Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatıdır.

